

LAYİHƏ

## Səhiyyədə uğurlarımız artmaqdadır

SƏH. 2



VERGİ

## "Vergilər uşaqların gözü ilə" ənənəvi rəsm müsabiqəsi keçirilib

SƏH. 3



EKO

## Paytaxtda yaşayış fondunun yenilənməsi

SƏH. 5

iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 22 (917)
3 - 9 iyun
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Azərbaycan etibarlı tərəfdaş kimi özünü artıq bütün dünyada təsdiq edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgi və konfransının, həmçinin VI Xəzər Beynəlxalq Energetika və Alternativ enerji sərgisinin açılışında iştirak edib.

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgisi Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilir. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 240 şirkət iştirak edir. Bütövlükdə sərginin ekspozisiya sahəsinin 63,7 faizini xarici iştirakçılar tutur. VI Xəzər Beynəlxalq Energetika və Alternativ enerji sərgisi Xəzəryanı regionun enerji səmərəliliyi və bərpa olunan enerji sahəsində yeganə ixtisaslaşmış tədbiridir.

Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgi və konfransında çıxış edən "ITE Group Plc" şirkətinin xüsusi məsləhətçisi Endryu Vud tədbirin əhəmiyyətini vurğulamışdır. Qeyd etmişdir ki, son illərdə dünyada neft, qaz və energetika sahələrində böyük dəyişikliklərin baş verməsi fonunda müzakirələr aparmaq üçün bu tədbir gözəl platformadır.

Azərbaycan Prezidenti İlham Əliyev sərgi-konfransda nitq söyləmişdir. O, sərgi və konfransın ölkəmizin həyatında əlamətdar hadisə olduğunu demişdir. İlk sərginin 1994-cü ildə keçirildiyini xatırladan Prezident İlham Əliyev bildirmişdir ki, o zaman Azərbaycan gənc müstəqil dövlət idi və ölkəmizin enerji potensialını dünyaya nümayiş etdirmək baxımından sərginin vacib rolu vardı. Xarici sərmayədarlar üçün ən cəlbedici sahənin neft sahəsi olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanda neft sənayesinin uğurlu inkişaf yolu barədə danışmışdır. SOCAR ilə BP-nin 22 ildir ki, etibarlı tərəfdaş kimi mühüm layihələrdə birgə işlədiyini qeyd edən Prezident İlham Əliyev bu əməkdaşlığın gözəl perspektivləri olduğunu da vurğulamış, SOCAR-ın artıq beynəlxalq enerji şirkətinə çevrildiyini, Azərbaycanda və xaricdə böyük investisiyalar yatırdığını diqqətə çatdırmışdır. 1994-cü ildən bu günə qədər digər sahələrdə olduğu kimi, neft-qaz sahəsində qarşıya qoyulan bütün layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldildiyini xüsusi qeyd etmişdir.

"Cənub Qaz Dəhlizi" layihəsinə dünyada marağın daha da artdığını bildirən Prezident İlham Əliyev bu layihənin perspektivindən danışdı, onun mövcud formatının genişləndiriləcəyini qeyd etmiş, vurğulamışdır ki, layihənin icrası ilə bağlı işlər qrafik üzrə gedir. Prezident İlham Əliyev bildirmişdir ki, hazırda "Abşeron" və "Ümid" yataqlarının işlənilməsi ilə bağlı işlər aparılır. Azərbaycanın elektrik enerjisi ixrac etdiyini, ölkəmizin beynəlxalq əməkdaşlığın təşəbbüskarı olduğunu vurğulayan Prezident İlham Əliyev demişdir ki, bu layihələrdən tranzit və istehlakçı ölkələr də bəhrələnir. "Bizim gələcəyə dəqiq, aydın baxışlarımız var", - deyən dövlətimizin başçısı bildirmişdir ki, 25 il ərzində Azərbaycan müstəqil ölkə kimi yaşaya bildiyini sübut edib. Dövlətimizin başçısı 2016-cı ilin sınaq ili olduğunu, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, ölkədə bütün sosial layihələrin icra edildiyini, gələn il iqtisadi artımın bərpa olunacağını, gələcəkdə neft amilindən asılılığı tam aradan qaldırmaq üçün işlərin görüldüyünü söyləmişdir. Prezident İlham Əliyev demişdir ki, ölkəmiz etibarlı tərəfdaş kimi özünü artıq bütün dünyada təsdiq edib.

Sonra Prezident İlham Əliyev sərgilərlə tanış olmuşdur.

* * *

SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verilmişdir.

Prezident İlham Əliyav BP, "Türkiyə Petrolları" şirkəti, STAR neft emalı zavodu,

Çinin Neft üzrə Texnologiya və İnkişaf Korporasiyasının, "Rusneft" şirkətinin, "SOCAR-Polimer" müəssisəsinin, SOCAR-ın "Caspian Driling Company" şirkətinin, Almaniyanın 8, İtaliyanın 8 şirkətinin, Qazaxıstanın "Caspian Offshore Construction", İranın "Qaz Souzan", Norveçin "Hexagon Composites" şirkətlərinin, Belarusun Minsk elektrotexnika zavodunun, "Azalternativenerji" MMC-nin, Fransanın "Total" şirkətinin sərgilərinə baxmışdır.

Sərgilərlə tanış olan Prezident İlham Əliyev XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgi və konfransının xatirə kitabını imzalamışdır.



# Paytaxtın ən hündür "göydələn"i istifadəyə verildi



**Mayın 30-da Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) yeni inzibati binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Son illərdə Bakıda tikilib istifadəyə verilən memarlıq nümunələri Azərbaycan paytaxtının inkişaf tempini göstərir, şəhərimizin abadlaşmasında və daha da gözəlləşməsində xüsusi rol oynayır. "Qara qızılı insan kapitalına çevirməliyik" məqsədini qarşıya qoyan dövlətimizin başçısı neftdən gələn gəlirlərin bir hissəsinin həm də nəhəng infrastruktur layihələrinin icrasına yönəltməklə bu gün Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bu prosesdə paytaxtın ən hündür "göydələn"i olan SOCAR-ın yeni inzibati binası xüsusilə seçilir. Bu nəhəng tikilinin təməli 2010-cu il oktyabrın 12-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bu gün dünyada Azərbaycan brendi kimi çıxış edən SOCAR artıq uzun illərdir ölkəmizin yanacaq-enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etməyi, qabaqcıl və ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə edərək ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmağı, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmağı, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimum mənfəət əldə etməyi qarşısına məqsəd qoyub və bu məqsədlərə də çatıb.

İndi Bakı sürətli inkişafı ilə dünyada mötəbər beynəlxalq tədbirlərin keçirildiyi, uğurlu iqtisadi və enerji layihələrinin icra olunduğu mühüm mərkəz funksiyasını şərəflə yerinə yetirir. Bu gün enerji resurslarımız dövlət müstəqilliyimizin dayaqlarının daha da möhkəmlənməsində mühüm rol oynayır, xalqımızın rifahına və xoşbəxt gələcəyinə xidmət edir.

Bioloji Təbabət Klinikası
Almaniya - Azərbaycan

Üstünlükləri:
Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
Xəstəliyin deyil xəstənin müalicəsi
Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə



MÜAYİNƏLƏR:
• Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
• Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
• Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
• 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
• KT (kompüter tomoqrafiya)
• İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
• Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
• AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
• BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
• EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
• PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
• Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:
• Plazmaferez
• Homeosiniatriya
• Ozonoterapiya
• Hidrokolonoterapiya
• Drenaj terapiya
• İynəbatırma (akupunktura)
• Tibbi kosmetologiya
• Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
• Osteopatiya
• Manual terapiya
• Autohemoterapiya
• Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az

# "SOCAR-ın "Petkim"dəki payı heç vaxt 51%-dən aşağı düşməyəcək"

"SOCAR-ın "Petkim Petrokimya Holding A. Ş."-dəki payı heç vaxt 51%-dən aşağı düşməyəcək".

Bu barədə "SOCAR Turkey Energy" şirkətinin İdarə Heyətinin sədri Zaur Qəhrəmanov deyib.

"Hazırda "Petkim"də 56-57%-lik paya sahibik. Bir şey dəqiqdir ki, SOCAR-ın payı 51%-dən aşağı düşməyəcək. Biz mütəmadi olaraq həm səhm alırıq, həm də satırıq. Hazırda səhmlər bahalaşdığı üçün biz onların bir qismini satırıq və layihələrimizin maliyyələşdirilməsinə yönəldirik", - deyə şirkət rəhbəri qeyd edib.



# Daşınmaz əmlakın sığortasında azalma davam edir

2016-cı ilin may ayında daşınmaz əmlakın icbari sığortası üzrə 6 458 sığorta müqaviləsi bağlanılmışdır.

İcbari Sığorta Bürosundan daxil olmuş məlumata görə, daşınmaz əmlakın icbari sığortası üzrə daxil olan sığorta haqlarının məbləği isə 1,7 milyon manat təşkil etmişdir.

Daşınmaz əmlakın icbari sığortası müqavilələrinin 61,7%-i yaşayış evləri və mənzillər, 0,7% -i inzibati binalar, 37,6%-i isə digər daşınmaz əmlakla bağlı olmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası müqavilələrinin sayında 55%, sığorta haqlarının məbləğində isə 22% faiz azalma müşahidə edilmişdir.

May ayında daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 251, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 1 sığorta müqaviləsi bağlanılmışdır.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə daxil olan sığorta haqları 19 710 manat, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə daxil olan sığorta haqları isə 400 manat təşkil etmişdir.

# "Azərçay" Audi konserni ilə razılaşma əldə edib

**"Azərsun Holding"in "Azərçay" markası Almaniyanın Audi konserni ilə razılaşma əldə edib. Bu barədə Holdinq saytında məlumat verilib.**




"Müxtəlif beynəlxalq və yerli tədbirlərin dəstəkçisi olan bu marka Audi konserni ilə razılaşma əldə edib", - saytda qeyd edilib.

Holdinqdən bildirildi ki, "Azərçay" tanınmış dünya brendi olan Audi ilə Azərbaycanı qürurlandıracaq layihəyə imza atıb. Yaxın zamanda layihə haqqında ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

"Dünyaya geniş miqyasda çıxan yerli marka olan "Azərçay"ın Audi ilə əməkdaşlığı digər Azərbaycan markaları üçün örnəkdir",- holdinqdən bildirildi.

Xatırladaq ki, ötən il, Almaniyanın Heinmann (Haynman) şirkəti ilə imzalanmış müqaviləyə əsasən artıq dünyanın 59 ölkəsinin 150-dən çox hava limanında Azərçay markasının satışı həyata keçirilir.

"Azərsun Holding" Masallı, Lənkəran və Astara rayonlarında yeni çay sahələrini salıb.

Daha bir xəbər. Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayev və Azərsun Holdinqin Müşahidə Şurasının sədri Abdolbari Goozal-ın rəhbərliyi altında çalışan alimlərdən ibarət qrup çayın yeni fermentasiyası üsulunu ixtira ediblər. Bununla bağlı Patent sənədi də alınmışdır. "Azərsun Holding"dən bildirildi ki, yeni fermentasiya üsulunun ixtirası çay plantasiyalarının genişləndirilməsinə təsir göstərəcəkdir.

# "İqtisadi vəziyyət bir qədər yaxşılaşacaq"

Neft qiymətlərinin kəskin azalmasına Azərbaycan hökuməti çevik reaksiya verib və iki mərhələdə manatın devalvasiyasını həyata keçirib. Bunu açıqlamasında Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycandakı nümayəndəsi Məhəmməd əl-Qorçi deyib.

"Təbii ki, devalvasiyalar iqtisadiyyata neqativ təsir edib. Amma ilin ikinci yarısından etibarən neft qiymətlərinin son zamanlar artması fonunda iqtisadi vəziyyətin bir qədər yaxşılaşacağını, tədiyyə balansının, cari hesabın normallaşacağını proqnozlaşdırırıq", - deyə M.əl-Qorçi qeyd edib.

BVF rəsmisi Azərbaycan iqtisadiyyatının yeni mərhələyə qədəm qoyduğunu xatırladaraq əlavə edib ki, neft qiymətlərinin azalması iqtisadiyyata xarici şok kimi təsir edib: "Ölkənin yeni iqtisadi modelə keçid edəcəyini gözləyirik. Yeni iqtisadi modelin özəl sektor və iqtisadi islahatlarla dəstəklənəcəyinə ümid edirik. İslahatlar həmçinin bank sektorunu da əhatə edəcək. BVF olaraq islahatların keçirilməsində Azərbaycan hökumətinə tövsiyə və məsləhətlərimizi verməyə hazırıq".

# Avtomobillər ilə bağlı sığortada 10%-ə yaxın artım

2016-cı ilin may ayı ərzində İcbari Sığorta Bürosunun informasiya sistemində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 100 067 müqavilə qeydiyyata alınmışdır.

İcbari Sığorta Bürosunun yaydığı məlumata görə, bunların 11 221-i xarici ölkədə qeydiyyata alınmış və Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri təşkil etmişdir.

2016-cı ilin may ayı ərzində standart və sərhəd sığorta müqavilələri üzrə daxil olan sığorta haqlarının məbləği 7,5 milyon manat təşkil etmişdir.

2015-ci ilin may ayı ilə müqayisədə sığorta müqavilələrinin sayında 6,9%, sığorta haqlarının məbləğində isə 9,9% artım müşahidə edilmişdir.

May ayında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə orta sığorta haqqı məbləği cari ilin aprel ayı ilə müqayisədə 1,6% azalaraq 75.7 **manat təşkil etmişdir.**

**May ayında 733 Yaşıl Kart müqaviləsi bağlanılmışdır**

May ayında Yaşıl Kart sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 733 beynəlxalq sığorta müqaviləsi bağlanılmışdır. Bu müqavilələrdən 680 müqavilə Türkiyə və İran İslam Respublikasına, 51 müqavilə Yaşıl Kart Sisteminə daxil olan bütün ölkələrə, 2 müqavilə isə Moldova və Ukrayna Respublikasına səfər edən avtonəqliyyat vasitələri ilə bağlı olmuşdur.

May ayında beynəlxalq sığorta müqavilələri üzrə sığorta haqları 87 080 manat təşkil etmişdir.

Yaşıl kart üzrə bağlanılan müqavilələrin 520-si minik, 106-sı yük, 97-si qoşqu, 6-sı avtobus, 4-ü isə motosiklet kateqoriyası üzrə olan nəqliyyat vasitələri ilə bağlı olmuşdur.

KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Səhiyyədə uğurlarımız artmaqdadır



**Sağlamlıq hər kəsin həyatı boyu ehtiyac duyduğu əsas amillərdəndir. Hər bir insanın sağlam olması və ya sağlamlığının bərpası isə səhiyyə sisteminin, tibbin inkişafından bilavasitə asılıdır. Tarix boyunca dünyanın müxtəlif yerlərində tibbin fərqli növlərindən istifadə edilmişdir. Zamanla digər sahələr kimi səhiyyə də öz əhatə dairəsini genişləndirmiş və özünün müasir, eyni zamanda, yüksək inkişaf səviyyəsinə çatmışdır.**

Bu gün artıq Azərbaycan da səhiyyə sahəsində yüksək irəliləyişlər əldə etmiş, müasir tələblərə cavab verən səhiyyə sisteminin qurulması, yeni xəstəxanaların tikilib istifadəyə verilməsi, mövcud tibb müəssisələrinin yenidən qurulması istiqamətində əhəmiyyətli addımlar atmışdır. Bunun nəticəsidir ki, hazırda ölkəmizdə insanların sağlamlığının qorunması və tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində ciddi nailiyyətlər qazanılmışdır.

Səhiyyə sistemi insan amilini, insanların sağlamlığını dövlətin prioritetlərindən sayan ölkə başçısı, prezident İlham Əliyevin də hər zaman diqqət mərkəzində olmuşdur. O, bu sahədə əldə olunmuş nəticələri çıxışlarında həmişə yüksək qiymətləndirmişdir: "Son illər bütövlükdə səhiyyə sahəsində nəticələr yaxşıdır. Bunu həm biz deyirik, həm də beynəlxalq qurumlar və onların arasında dünya miqyasında bu məsələlərlə məşğul olan Dünya Səhiyyə Təşkilatı bunu qeyd edir.

...Azərbaycanda səhiyyə sahəsində böyük irəliləyiş əldə edilmişdir. Bunu statistik göstəricilər də təsdiqləyir".

### Dünyadakı ən son yeniliklər Azərbaycanda da tətbiq olunmalıdır

Xüsusilə, ölkə başçısının sahibkarlığın inkişafına göstərdiyi qayğı və diqqət ölkədə fəaliyyət göstərən özəl tibb müəssisələrinin də sayının artmasına səbəb olmuşdur. Bu cür özəl müəssisələrdən biri kimi Zəfəran Hospitalı da qeyd etmək olar. Öz fəaliyyətində keyfiyyəti və tibb sahəsində mövcud olan yenilikləri üstün tutan Zəfəran Hospital müasir təbabətin bütün normativlərini əsas meyar olaraq götürmüşdür. Prezident İlham Əliyev də səhiyyə sahəsində bu cür meyarlara hər zaman xüsusi olaraq diqqət çəkir: "Dünya səhiyyə elminin uğurlu inkişafı insanların sağlamlığına bilavasitə bir töhfədir. Biz çalışmalıyıq ki, dünyada bu sahədə gedən ən son yeniliklər, ixtiralar Azərbaycanda da tətbiq olunsun. Biz buna hazır olmalıyıq. Yaradılan maddi-texniki baza, müasir avadanlıq belə imkanları verir".

Zəfəran Hospital geniş profilli özəl tibb mərkəzidir. Bu mərkəz təcili yardım, poliklinika, qeyri-invaziv və invaziv radiologiya, ürək-damar cərrahiyyəsi, laboratoriya, cərrahiyyə, reanimasiya və intensiv terapiya şöbələrindən ibarətdir. Şöbələrdə tam peşəkar və məsuliyyətli tibbi personal fəaliyyət göstərir. Ən son avadanlıqla təchiz olunmuş mərkəzdə pasientlərə yüksək keyfiyyətli, 24 saatlıq təcili tibbi yardım xidməti, xəstələrin transferi xidməti, evdə tibbi manipulyaəsiyalar, 24 saat laboratoriya, stasionar xidmət, bütün növ tibbi manipulyasiyalar və müxtəlif diaqnostik və radioloji tibbi xidmətlər göstərilir.

Yeni yaranmasına baxmayaraq, bu klinikada həm poliklinik, həm də cərrahiyə xidməti mövcuddur. İlk olaraq kardioloji yönümlü fəaliyyət



ZƏFƏRAN
Sağlamlığınızın etibarlı tərəfdaşı!

göstərməyi planlaşdıran klinikanın gələcəkdə ümumi spektrlə fəaliyyət göstərməsi nəzərdə tutulur.

### Əsas məqsəd keyfiyyətdir

Bütün səhiyyə mərkəzlərində sanitar-gigiyenik qaydalara əməl olunması əsas amillərdəndir. Bunu nəzərə alaraq klinikada əməliyyat blokunun yüksək standartlarla təşkilini xüsusi qeyd etmək lazımdır. Çünki bu əməliyyat bloku steril şərait yaradır və xüsusi havalandırma sistemi ilə havadakı kiçik toz hissəciklərini belə minimuma endirir. Klinikanın direktoru Nadir Novruzovun da qeyd etdiyi kimi, kifayət qədər vəsait tələb edən bu sistemin qurulmasında əsas məqsəd keyfiyyətli xidmət göstərmək və insan sağlamlığını hər cür təhlükədən müdafiə etməkdir.

Hər bir sahibkar öz müəssisəsini qurarkən təbiidir ki, günün tələblərindən çıxış edir və həmin müəssisəni mövcud tələblərə uyğun qurur. Zəfəran Hospital isə yalnız bu günün deyil, həm də gələcəyin tələbləri nəzərə alınaraq qurulmuş bir müəssisədir.

### Devalvasiyanın səhiyyə sisteminə əsas təsirləri

Ötən il ölkədə bir-birinin ardınca baş verən devalvasiyaların təsiri, demək olar ki, hər bir sahədə, hər bir müəssisədə, xüsusilə özəl sahibkarlıq obyektlərində hiss olundu. Bir çox müəssisələr bağlandı və ya qiymət artımına getməli oldu. Təbiidir ki, bu, xarici ölkələrdən avadanlıq və dərman preparatları alan tibb müəssisələrinə də təsirsiz ötüşmədi və xidmətlərdə qiymət artımı ilə nəticələndi. Lakin Zəfəran Hospitalda devalvasiyanın bu cür mənfi fəsadına heç də rast gəlinmir. Klinikanın əsas özəlliklərindən biri də elə qiymətlərin münasib olmasıdır. Burada qiymətlər və xidmətlər bütün təbəqələr nəzərə alınaraq tənzimlənib. Məhz bütün bunların nəticəsidir ki, yeni açılmasına baxmayaraq, artıq bura xəstələr müraciət edirlər.

Klinikanın direktoru bildirir ki, devalvasiyanın mənfi fəsadı qiymət artımında hiss olunmasa da, insanların müraciətində özünü göstərir. Belə ki, mövcud vəziyyəti nəzərə alaraq insanlar büdcələrini əlavə xərclərdən azad edərkən öz sağlamlıqlarını da ikinci plana atmış olurlar ki, bu da düzgün deyil. Çünki sağlamlıq hər şeydən daha önəmlidir.

Ölkə iqtisadiyyatına təsir göstərən devalvasiyanın səhiyyə sisteminə əsas təsirlərindən biri isə xaricdən mütəxəssis cəlbi sahəsində yaşanır. Belə ki, əvvəllər dolların manat qarşısında daha aşağı olduğunu nəzərə alan mütəxəssislər hazırda manatın dollar qarşısında daha aşağı məzənnədə olmasına da önəm verirlər. Bunları nəzərə alaraq Zəfəran Hospitalda xaricdə təhsil almış, öz işinin peşəkarı olan yerli həkimlərə üstünlük verilir və onlara güvənərək müxtəlif tibbi xidmətlər göstərilir. Klinikanın gələcək planlarında xaricdən mütəxəssis cəlbi də nəzərdə tutulur.

### Xarici klinikalara axan sərmayələr...

Ölkəmizdə kifayət qədər tibb müəssisəsinin olmasına baxmayaraq, yenə də müalicə üçün xaricə üz tutan və xarici ölkələrin tibb müəssisələrində əməliyyat olunan, müalicə alan insanlara rast gəlinir. Bu, yalnız səhiyyə deyil, həmçinin iqtisadi baxımdan da önəmli amildir. Yəni, insanların xarici ölkəyə üz tutması həm səhiyyə sahəsində mövcud olan boşluqlardan və onların hələ də həll olunmadığından xəbər verməklə yanaşı, xarici ölkə iqtisadiyyatına da maliyyə axını deməkdir. Klinikanın direktoru da bu amilə xüsusi diqqət çəkərək bildirir ki, keyfiyyətli və peşəkar xidmət göstərərək biz həm ölkə daxilində səhiyyə sistemini irəliyə apara, həm də insanların müalicə üçün xaricə axınının qarşısını alaraq ölkə iqtisadiyyatına xeyir vermiş olarıq. Bu amil ölkə başçısı İlham Əliyevin çıxışlarında da xüsusi qeyd olunur: "Həkimlərin peşəkarlığı, bilikləri artmalıdır. Həkimlər daim öz fəaliyyətləri, işləri ilə elə etməlidirlər ki, daha da bilikli olsunlar. Elə edək ki, Azərbaycanda istənilən ən ağır əməliyyat aparıla bilsin. Son illərdə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Çünki bu gün Azərbaycanda ən ağır ürək-damar əməliyyatları, orqan transplantasiyaları aparılır. Ancaq sirr deyil ki, bəzi insanlar, xüsusilə imkanlı insanlar müalicə üçün hələ də daha çox xaricə üz tuturlar. Biz elə bir vəziyyət yaratmalıyıq ki, buna ehtiyac olmasın. Azərbaycanda ən yüksək tibbi xidmət, ən yüksək peşəkarlıq olmalıdır. Mən əminəm ki, birgə səylər, həm dövlət tərəfindən aparılan siyasət, yeni tibb ocaqlarının yaradılması, müasir avadanlığın mövcudluğu və həm də həkimlərin peşəkarlığı, təkmilləşməsi bizi bu məqsədə nail olmağa gətirib çıxaracaqdır".

### Tibbi sığortanın tətbiqinə ehtiyac var

Azərbaycanda klinikaların fəaliyyəti üçün hazırda sağlam mühit formalaşmaqdadır. Xüsusilə bu sahədə tibbi sığortanın əhəmiyyətini qeyd etmək lazımdır. Zəfəran Hospitalda da yaxın gələcəkdə tibbi sığorta xidmətinin tətbiqi nəzərdə tutulur. Tibbi sığortanın tətbiqini çox mühüm və düzgün addımlardan sayan klinika rəhbəri Nadir Novruzov bu sahədə cənab prezidentin səylərini də xüsusi vurğulayaraq bildirir ki, Azərbaycanda tibbi sığorta olmadıqca səhiyyənin tam inkişafından söhbət gedə bilməz.

### Peşəkar kadr birbaşa müəssisənin uğurudur

Hər bir müəssisənin uğuru mütləq şəkildə orada çalışan kadrların fəaliyyətindən də əhəmiyyətli dərəcədə asılıdır. Buna görə də Zəfəran Hospitalda kadr seçimində bir sıra cəhətlər xüsusi olaraq nəzərə alınır. İlk olaraq klinika onlarla çalışacaq olan əməkdaşların peşəkarlıq meyarlarına üstünlük verir, ikinci amil kimi mənəvi cəhətlər əsas götürülür. Üçüncü amil isə bəlkə də bir çox müəssisələrdə kadr seçimində nəzərə alınmayan, lakin digər amillər qədər önəm daşıyan Azərbaycan dövləti və dövlətçiliyinə münasibət məsələsidir.

Zəfəran Hospitalın öz professionallığı ilə seçilən həkimləri həmçinin müxtəlif treninq və seminarlara da göndərilir, onların daim yenilənən tibbi avadanlıqlar sahəsində ixtisaslaşmasına, tibbi biliklərinin artırılmasına cəhd göstərilir. Hətta klinikada müxtəlif bayram günləri ilə əlaqədar xəstələrin pulsuz qəbulu və müayinəsi də həyata keçirilir. Klinikada gələcəkdə açıq ürək əməliyyatlarının keçirilməsi də nəzərdə tutulur.

*Mətanət HÜSEYNOVA*

İQTİSADİYYAT
3 - 9 iyun 2016-cı il

# Саудовская Аравия может поддержать заморозку добычи нефти странами ОПЕК




Саудовская Аравия может поддержать установление ограничения уровня добычи нефти членами ОПЕК при условии, что "потолок" будет повышен с планируемых 32 до 32,5 миллиона баррелей черного золота в день. Об этом сообщил The Wall Street Journal со ссылкой на источник, близкий к переговорам.

На предыдущих встречах стран-членов ОПЕК прийти к компромиссу по этому вопросу не удалось, не в последнюю очередь как раз из-за позиции Саудовской Аравии — королевство опасается потерять часть своей доли рынка из-за претензий новых игроков.

Из других участников переговоров за заморозку добычи выступают Нигерия, Катар и Алжир. Представитель Объединенных Арабских Эмиратов сообщил WSJ, что ОАЭ выступают против ограничения добычи нефти, если их не поддержит Иран. Последний, в свою очередь, настаивает, что после снятия с него западных санкций продолжит наращивать добычу нефти до четырех миллионов баррелей в день.

# Розничная торговая сеть Баку будет принимать бесконтактные платежи

В крупных супермаркетах Баку будут установлены специальные POS-терминалы для приема бесконтактных платежей, сказал Trend источник на IT-рынке Азербайджана. По словам собеседника агентства, терминалы с бесконтактным интерфейсом поступят на рынок к концу месяца и будут предложены банкам для оснащения сетей розничной торговли.

Оплата покупок будет осуществляться специальной бесконтактной картой, которую можно будет прикрепить к мобильному телефону.

Далее необходимо будет поднести телефон к терминалу, после чего на телефон поступит счет, выставленный кассиром, а затем нужно будет ввести Pin-код, произвести оплату и получить чек.

Пополнить баланс бесконтактных карт можно будет посредством "электронного кошелька" через мобильный телефон. Средства же на счет "электронного кошелька" можно будет внести посредством платежных терминалов (MilliÖN, eManat, ExpressPay и Easypay), а также в отделениях почтовой связи.

# Азербайджан инициировал создание Координационного комитета для транспортного маршрута "Север-Юг"

Азербайджан инициировал создание Координационного комитета для международного транспортного маршрута "Север-Юг", сообщил в четверг Trend глава пресс-службы ЗАО "Азербайджанские железные дороги" Надир Азмамедов.

С соответствующим предложением, которое позволит ускорить развитие маршрута, выступил председатель ЗАО "Азербайджанские железные дороги" Джавид Гурбанов в ходе трехсторонней встречи с главами железных дорог России Олегом Белозеровым и Ирана Мохсеном Пурсеидом в рамках XI Международного железнодорожного бизнес-форума в Сочи.



Во встрече также принял участие руководитель государственного железнодорожного концерна Финляндии Микаэль Аро. Участники встречи обсудили вопрос привлечения Финляндии к участию в транспортном коридоре "Север-Юг". Представитель Финляндии выразил заинтересованность своей страны в этом транспортном коридоре.

Соглашение между Россией, Ираном и Индией о международном транспортном коридоре "Север-Юг" было заключено 12 сентября 2000 года в Санкт-Петербурге.

Соглашение о прохождении внутренних процедур в этих странах вступило в силу 21 мая 2002 года.

В сентябре 2005 года Азербайджан присоединился к соглашению "О международном транспортном коридоре "Север-Юг".

Транспортный коридор "Север-Юг" призван соединить Северную Европу с Юго-Восточной Азией. Он будет служить связующим звеном для соединения железных дорог Ирана, Азербайджана и России.

На первом этапе по коридору "Север-Юг" планируется транспортировать пять миллионов тонн грузов в год, а в дальнейшем - более 10 миллионов тонн грузов.

# Призрак бродит по Европе: ЕС рискует превратиться в СНГ



Призрак распада бродит по Европе — эти слова главы Евросовета Дональда Туска сегодня подтверждаются одновременно в британской и германской прессе. Все началось с недавнего опроса, который провела газета Guardian. По ее данным, случись референдум завтра, Британия покинет единую Европу.

Эти данные настолько напугали политическую элиту Лондона, что вот уже социологическая служба ORB по заказу Daily Telegraph опрашивает британцев заново. Сегодня опубликованы результаты и они лишь немного спокойнее: Сторонников ЕС — 51%, а евроскептиков — 46%. Но все дело в тенденции. Неделю назад, по данным той же ORB, счет был 55:42. То есть, евроскептики отставали от оптимистов на 13% — а сегодня — всего на 5%!

И вот сразу заявление лидеров неформального блока по выходу Британии из ЕС:

Экс-мэр Лондона Борис Джонсон, министр юстиции Майкл Гоув и ряд других евроскептиков выступили за ужесточение миграционной политики в случае выхода Великобритании из состава Евросоюза. Заявление сегодня публикует газета Telegraph.: "Автоматическое право всех граждан ЕС приезжать в Британию на постоянное проживание и трудоустройство закончится. Мы возьмем за пример миграционную политику, аналогичную австралийской".

Британия должна стать, как Австралия, — визы только рабочие, только на время трудового контракта, и только для знающих английский язык. То есть для постоянного жительства Британию обещают закрыть даже для неработающих немцев и французов, не говоря уже о сирийцах, ливийцах и прочих беженцах. И всё это после того, как официальный Лондон опубликовал данные: за прошлый год население Британии выросло на 333 тысячи за счет мигрантов — рекорд. И такими темпами за десять лет Британия получит четыре миллиона иностранцев.

Сколько прироста грозит Германии за счет мигрантов — даже никто не будет пытаться, чтобы не злить немцев. Сегодня Ангела Меркель уехала в Швейцарию — редкую счастливую страну Европы, которую никто не вправе из Брюсселя заставить принимать на себя мигрантские квоты. Вместе с премьером Италии и президентом Франции канцлер Германии проехала по новому тоннелю рекордной длины. За 57 километров в толще скал президент Швейцарии Йоханн Шнайдер-Амман рассказал гостям, что путь через Альпы швейцарцам показал Суворов. И это, подчеркнул глава Швейцарии, глубоко символично. Непонятно на что намекал очень довольный собой лидер страны, не состоящей в Евросоюзе, но в это время в Германии — снова разгорелся скандал.

Страна, которая после кельнских событий с сексуальными домогательствамимигрантов уже никогда не будет прежней, пережила, кажется, еще один Кельн. В городе Дармштадте почти три десятка женщин обратились в полицию с жалобой на сексуальные домогательства мигрантов. Они напали на девушек во время музыкального фестиваля. И снова власти, как будто не наученные кельнским уроком, отпустили всех опознанных жертвами насильников. Немцы угрожают акцией протеста. Они, некогда самые толерантные, теперь мало отличаются от бунтарей-французов.

Вот опрос института общественного мнения YouGov по заказу немецкой издательской группы Handelsblatt. Однозначно довольны членством в ЕС — 54% немцев и 42% французов. А примерно по трети опрошенных в Германии и Франции — хотели бы чтобы их страны вышли из Евросоюза.

Мотивация — как и в Британии: закрыть границы. Но вот еще один стимул к обособлению — на примере целого списка стран. Большинство жителей Британии, Германии, Франции, Дании, Швеции и Финляндии считают, что они больше всех в ЕС страдают, вытаскивая на своей шее Грецию и целый ряд новичков Евросоюза. Иными словами — хватит кормить других!

И вот этот сепаратизм, в том числе с требованием независимости от американских правил торговли, когда протестуют жители стержневых, системообразующих стран Евросоюза, может быть определяющим в будущей судьбе Европы. Если вернуться к главе Евросовета Дональду Туску, то он не исключает скорую федерализацию ЕС. А это почти как СНГ вместо СССР.

"Призрак распада бродит по Европе, — говорит он, — и видение федерации не кажется мне лучшим ответом на это".

И как итог сегодняшнего дня — происшествие в Австрии. В городе Альтен-Фельдене неизвестные подожгли новый, только что построенный лагерь для мигрантов. Комплекс из нескольких зданий сгорел дотла. Проект новой жизни так не похожей на спокойную старую, у европейцев уже у каждого свой — суверенный.

*www.vesti.ru*

# *США лишились статуса самой конкурентоспособной экономики*

Американская экономика лишилась звания самой конкурентоспособной, опустившись с первой на третью строчку в ежегодном рейтинге конкурентоспособности, составляемом Швейцарским институтом управления (IMD).

После трех лет лидерства США уступили это звание Гонконгу, на втором месте оказалась Швейцария. Сингапур, ранее занимавший третью строчку, потерял одну позицию. В десятку также вошли Швеция, Дания, Ирландия, Нидерланды, Норвегия и Канада.

Россия поднялась за год в рейтинге на одну строчку — до 44-го места.

Китай опустился на три строчки с 22-го на 25-е место. Аутсайдером признана Венесуэла, занявшая 61-ю позицию.

Как отметил глава IMD Артуро Брис, Гонконг оказался лидером рейтинга благодаря приверженности созданию благоприятной бизнес-среды, тогда как швейцарская экономика была отмечена за ее качество. «США по-прежнему имеют лучшие экономические показатели в мире, но есть много других факторов, которые мы принимаем во внимание при оценке конкурентоспособности», — пояснил он.

IMD составляет мировой рейтинг конкурентоспособности ежегодно с 1989 года.

# Bank Melli İran Bakı filialının 31 dekabr 2015-ci il tarixinə dair BALANS HESABATI

*Maliyyə Vəziyyəti haqqında Hesabat*
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2015-ci il | 31 dekabr 2014-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 25,721,933 | 20,636,475 |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | 8 | 45,939,941 | 25,055,261 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9 | 10,235,220 | 5,689,869 |
| Ticarət üçün qiymətli kağızlar | 10 | 5,419,218 | 8,995,116 |
| Ödəniş tarixinədək saxlanılan investisya kağızları | 10 | - | 2,504,676 |
| Binalar və avadanlıqlar | 11 | 3,795,027 | 13,214,877 |
| Qeyri-maddi aktivlər | 11 | 33,493 | 21,425 |
| Digər aktivlər | 12 | 9,720,597 | 467,141 |
| **CƏMİ AKTİVLƏR** | | **100,865,429** | **76,584,840** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 13 | 46,917,755 | 24,595,798 |
| Müştəri hesabları | 14 | 2,708,850 | 1,293,936 |
| Təxirə salınmış gəlir vergisi öhdəliyi | 21 | 33,034 | 42,157 |
| Digər öhdəliklər | 15 | 30,046 | 28,643 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **49,689,685** | **25,960,534** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 16 | 51,433,671 | 51,433,671 |
| Binalar üzrə yenidənqiymətləndirmə ehtiyatı | | 22,770 | 30,477 |
| Yığılmış zərər | | (280,697) | (839,842) |
| **CƏMİ KAPİTAL** | | **51,175,744** | **50,624,306** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **100,865,429** | **76,584,840** |

| | Qeyd | 31 dekabr 2015-ci il tarixində tamamlanan il üzrə | 31 dekabr 2014-cü il tarixində tamamlanan il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 17 | 3,053,755 | 2,004,549 |
| Faiz xərcləri | 17 | (25,462) | (8,153) |
| **Xalis faiz gəlirləri** | | **3,028,293** | **1,996,396** |
| Dəyərsizləşmə üzrə ehtiyatın geri qaytarılması/(dəyərsizləşmə üzrə ehtiyat), xalis | | (4,778,421) | (350,204) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **(1,750,128)** | **1,646,192** |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir - zərər çıxılmaqla | 18 | 3,736,227 | (24,195) |
| Haqq və komissiya gəlirləri | 19 | 110,104 | 159,321 |
| Haqq və komissiya xərcləri | 19 | (14,251) | (37,353) |
| Ticarət üçün qiymətli kağızlar üzrə realizasiya olunmuş zərər | | (16,587) | (3,547) |
| Əmlak, tikili və avadanlıqların silinməsindən zərər | | 687 | (300) |
| Digər gəlirlər | | 761 | 93 |
| **Əməliyyat gəliri** | | **2,066,813** | **1,740,211** |
| Əməliyyat xərci | 20 | (1,526,123) | (1,638,243) |
| **Vergidən əvvəlki mənfəət** | | **540,690** | **101,968** |
| Mənfəət vergisi gəliri/(xərci) | 21 | 7,715 | (41,412) |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT** | | **548,405** | **60,556** |
| Əmlakın yenidənqiymətləndirilməsi üzrə gəlir | | 1,625 | 36,492 |
| Digər məcmu gəlir komponentləri üzrə mənfəət vergisi gəliri/(xərci) | | 1,408 | (7,298) |
| **İl üzrə digər məcmu gəlirlər** | | **3,033** | **29,194** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİRLƏR** | | **551,438** | **89,750** |

| | Səhmdar kapital | Yığılmış zərər | Digər ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2014-cü il tarixinə qalıq** | **22,408,701** | **(902,598)** | **3,483** | **21,509,586** |
| İl üzrə xalis mənfəət | - | 60,556 | - | **60,556** |
| İl üzrə digər məcmu gəlirlər | - | - | 29,194 | **29,194** |
| **İl üzrə cəmi məcmu gəlirlər** | **-** | **60,556** | **29,194** | **89,750** |
| Səhmdar kapitlının artırılması | 29,024,970 | - | - | **29,024,970** |
| Yenidən qiymətləndimə üzrə ehtiyata köçürmə | - | 2,200 | (2,200) | - |
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | **51,433,671** | **(839,842)** | **30,477** | **50,624,306** |
| İl üzrə xalis mənfəət | - | 548,405 | - | **548,405** |
| Digər məcmu gəlirlər | - | (198) | 3,231 | **3,033** |
| **İl üzrə cəmi məcmu gəlirlər** | **-** | **548,207** | **3,231** | **551,438** |
| Yenidən qiymətləndimə üzrə ehtiyata köçürmə | - | 10,938 | (10,938) | - |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **51,433,671** | **(280,697)** | **22,770** | **51,175,744** |

| | Qeyd | 31 dekabr 2015-ci il tarixində tamamlanan il üzrə | 31 dekabr 2014-cü il tarixində tamamlanan il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | | 540,690 | 101,968 |
| Düzəlişlər: | | | |
| Ehtimal edilən zərərlər üçün ehtiyat xərcləri | | 4,512,518 | 310,429 |
| Amortizasiya və köhnəlmə xərcləri | | 177,062 | 217,097 |
| Əmlak, tikili və avadanlıqların silinməsindən zərər | | (687) | 300 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən mənfəət | | (3,727,590) | (15,139) |
| **Aktiv və passivlərdə dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **1,501,993** | **614,655** |
| **Əməliyyat aktivlərində (artımlar)/azalışlar:** | | | |
| Digər banklar və maliyyə institutlarından alınacaq vəsaitlər | | (8,861,897) | (220,433) |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (4,875,621) | (969,184) |
| Ticarət üçün qiymətli kağızlar | | 3,575,899 | (8,995,116) |
| İnvestisiya qiymətli kağızları | | 2,504,676 | (2,504,676) |
| Digər aktivlər | | (203,507) | 112,399 |
| **Əməliyyat öhdəliklərində artımlar/(azalışlar):** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | | 79,151 | (21,643,818) |
| Müştəri hesabları | | 191,791 | (1,492,610) |
| Digər öhdəliklər | | (2,116) | (17,614) |
| **Vergi tutulmalardan əvvəl daxil olan pul vəsaitləri:** | | **(6,089,631)** | **(35,116,397)** |
| Ödənilmiş mənfəət vergisi | | - | (10,645) |
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **(6,089,631)** | **(35,127,042)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Bina və avadanlıqların alınması | | (39,602) | (3,522) |
| Qeyri-maddi aktivlərin alınması | | (28,000) | (1,711) |
| Torpaq, tikili və avadanlıqların satışından daxilolmalar | | 4,671 | - |
| **İnvestisiya fəaliyyəində istifadə olunan pul vəsaitləri** | | **(62,931)** | **(5,233)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL** | | | |
| Səhmdar kapitalında artım | | - | 29,024,970 |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **-** | **29,024,970** |
| Xarici valyuta kurslarındakı døy. pul və pul vəs. ekviv. təsiri | | 11,238,020 | (960,806) |
| **XALİS PUL VƏ PUL EKVİVALENTLƏRİ ARTIMLARI / (AZALMALARI)** | | **5,085,458** | **(7,068,111)** |
| **PUL VƏ PUL EKVİVALENTLƏRİ, hesabat ilinin əvvəlinə** | 7 | **20,636,475** | **27,704,586** |
| **PUL VƏ PUL EKVİVALENTLƏRİ, hesabat ilinin sonunda** | 7 | **25,721,933** | **20,636,475** |

**İdarə heyəti adından:**

**Najafimarganmaskan Asghar Khalil**
**Filial Müdiri Müavini**

**Rəhimli Elxan Rəşad oğlu**
**Baş Mühasib**

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

Bank Melli Iran Bakı filialının Rəhbərliyinə

**Maliyyə hesabatları üzrə auditor hesabatı**

Biz Bank Melli İran Bakı filialının ("Bank") 31 dekabr 2015-ci il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatı, həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

**Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti**

Hazırkı maliyyə hesabatların Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və eləcə də saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminінə görə Rəhbərlik məsuliyyət daşıyır.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş proseduralar auditorların mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisəsinin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir.

Biz hesab edirik ki, bu şərti audit rəyini bildirməyə əsas verən kifayət qədər və uyğun auditor sübutu əldə etmişik.

***Şərti rəy üçün əsaslar***

Bankın rezident banklarda yerləşdirilmiş müxbir hesablar və qısamüddətli depozitlər üzrə ehtimal olunan zərəri BMHS prinsiplərinə əsasən kifayət qədər olmamışdır. Əgər bu depozitlər üzrə ehtimal olunan zərər BMHS-ə əsasən düzgün hesablanmış olsaydı, 12,598,174 AZN məbləğində əlavə zərər üzrə ehtiyat yaradılmış olardı.

***Rəy***

Bizim fikrimizcə, yuxarıda izah edilən hallar istisna olmaqla, əlavə edilən maliyyə hesabatları bütün mühüm aspektlər baxımından Bankın 31 dekabr 2015-ci il tarixinə olan maliyyə vəziyyətini, onun fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq həmin tarixdə başa çatan il üçün düzgün əks etdirir.

***İzahedici Qeydlər***

Biz sizin diqqətinizi əlavə olunmuş maliyyə hesabatlarında 11 saylı Qeydə cəlb etmək istərdik. Uçot reqistrində qalıq dəyəri AZN 9,295,964 olan Bankın binası Bakı Şəhər İcra Hakiminin qərarı ilə sökülmüşdür. Üstündən bir ildən çox müddət keçməsinə baxmayaraq, Bank və Dövlət orqanı hələ də zərərin kompensasiyası ilə bağlı razılığa gələ bilməmişdirlər. Bank rəhbərliyi güman edir ki, zərərlə bağlı Bankın iddiası məhkəmə tərəfindən təmin olunacaqdır.

Biz rəyimizdən bu məsələ ilə bağlı imtina etmirik.

Bakı, Azərbaycan Respublikası
31 mart 2016-cı il

# Paytaxtda yaşayış fondunun yenilənməsi

## *Qəza vəziyyətində olan binalar sökülləcək*

*(əvvəli ötən sayımızda)*

Həmin mənzillər köçürüldükdən sonra sakinlər yaşadıqları müddətdə icarə əsasında onu kredit kimi ödəyirlər. Yaşayış evinin qiymətinin tamamilə ödənilməsindən sonra mənzil özəlləşdirilir və sakinin şəxsi mülkiyyətinə çevrilir. Sosial yaşayış evləri Azərbaycan vətəndaşlarına neçəyə başa gələcək – bu suala cavab vermək hələ ki, çətindir. Yəqin ki, müvafiq təşkilatlar mənzillərin maya dəyərini hesablayacaq və həmin göstəricilər əsasında aylıq ödəniş haqqını və borcun ödənilməsi müddətini müəyyən edəcəklər. Sosial yaşayış evinin əsas üstünlüyü ondan ibarətdir ki. burada ipotekanın sənədləşdirilməsi zamanı gəlirlərin ölçüsünə görə sərt tələblər irəli sürülmür.

Mənzilin qiymətinin ödənilməsi müddəti qısamüddətli və ya uzunmüddətli ola bilər ki, bu da müqavilənin şərtlərindən asılıdır. Eyni zamanda, yararsız yaşayış evinin sökülməsi əvəzinə mənzillərin təqdim edilməsi kompensasiyaların ölçülərindən narazı qalan vətəndaşların sayını da əhəmiyyətli dərəcədə azaldacaq. Axı, kompensasiya verilməsi zamanı daha bir amil – həmin yaşayış sahəsinin harada yerləşməsi nəzərə alınmır. Bu rayonda bir sot torpağın qiyməti nə qədərdir? Təkcə yaşayış sahəsinin hər kvadrat metrinin qiymətini deyil, həm də onun yerləşdiyi ərazini də nəzərə almaq lazımdır. Mərkəz mərkəzdir. Fərqi yoxdur ki, vətəndaşın burada daxması var və ya malikanəsi.



Ekspertlərin sözlərinə görə, sosial yaşayış sahəsi seqmentinin inkişafı on il ərzində insanların yaşayış problemini həll edə bilər.

Belə bir təyinatlı fondun yaradılması ölkənin Mənzil Məcəlləsi ilə nəzərdə tutulmuşdur. Sənəd yaşayış sahəsinə ehtiyacı olan aztəminatlı ailələrin təyin edilməsi üçün əsasları və qaydaları müəyyənləşdirir. Məcəllədə qeyd edilir ki. sosial təyinatlı yaşayış fondu sosial icarə müqavilələri əsasında icarəyə verilən dövlət və bələdiyyə yaşayış fondunun yaşayış sahələrinin məcmusudur. Həm də ki, bizim ölkəmiz sürətlə ucaldılan evlərin tikintisi üzrə qərb texnologiyalarına çıxış əldə etmişdir. Onlar isə 20-30 il bundan əvvəl istifadə edilənlərdən daha kamildir, həm də enerji qoruyan və ekoloji təmiz materialların istifadə edilməsinin mümkünlüyünü nəzərdə tutur.

Ekspertlərin sözlərinə görə, ilkin hesablamalara əsasən, göstərilən məqsədlər üçün büdcədən hər il 300 milyon manat ayırmaq olar. Lakin tikinti miqyasını digər maliyyə mənbələrinin də cəlb edilməsi ilə genişləndirmək mümkündür. Sosial yaşayış evlərinin tikintisi sərfəli sərmayə qoyuluşudur. Bu məqsədlərlə hazırda sərf ediləcək neft gəlirləri iyirmi ildən sonra, özü də insanların həyat tərzini yaxşılaşdırmaqla geri qayıdacaqdır. İkincisi, həmin proqramın həyata keçirilməsi daşınmaz əmlak bazarında qiymət artımının qarşısını alacaqdır. Və nəhayət, proqram aztəminatlı ailələri kirayə haqqı ödəməkdən azad edəcək və qiymətlərin yüksək olduğu daşınmaz əmlak kirayəsi bazarında da qiymətləri sabitləşdirəcəkdir.

Beləliklə, sosial yaşayış evlərinin tikintisi əlavə iş yerlərinin yaradılmasına, eləcə də tikinti materiallarının istehsalı üzrə sənaye sahələrinin yüksəlişinə gətirib çıxaracaq. Digər tərəfdən, ölkədə tikinti biznesində də vəziyyət yaxşılığa doğru dəyişəcək, artıq sağlam rəqabət mühiti yaradılacaq.

Sosial yaşayış evlərinin tikintisi məsələsi ilə Azərbaycan Respublikası Prezidenti yanında yaşayış binalarının tikintisi üzrə Dövlət agentliyi məşğul olacaq. Agentliyin tərkibində nizamnamə kapitalı 10 milyon manat olan MİDA məhdud məsuliyyətli cəmiyyəti təsis edilmişdir ki, bu, çoxmərtəbəli yaşayış binalarının tikintisini həvəsləndirməli, vətəndaşlara güzəştli şərtlərlə mənzillərin təqdim edilməsi üçün şərait yaratmalı, çoxmərtəbəli binaların tikintisi üçün ayrılan vəsaitlərin səmərəli istifadəsini təşkil etməlidir. Həmin MMC yaşayış və ictimai-işgüzar zonalarda çoxmərtəbəli yaşayış binalarının, eləcə də digər sosial obyektlərin ucaldılması üzrə sifarişçi kimi çıxış edəcəkdir. Hazırda pilot layihələr həyata keçirilir. Birinci layihə Sabunçu rayonunda realizə edilməyə başlamışdır.

Təbii ki, tikinti şirkətlərini maraqlandıran şərtlər nəzərə alınmalıdır. İki ay ərzində Mənzil İnşaatı Dövlət Agentliyi sosial daşınmaz əmlakın hansı güzəştli şərtlər əsasında vətəndaşlara təqdim edilməsi üzrə təklifini Azərbaycan hökumətinə təqdim etməlidir.

Şübhəsiz ki, nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi yaşayış və digər sosial yönümlü binaların daha da sürətlə və keyfiyyətli inşa edilməsini və yaxın gələcəkdə bu vacib sahənin inkişafını ölkəmizdə təmin edəcəkdir.

*İradə Bəkirzadə*

# "PAŞA Həyat" "Ən yaxşı müştəri təcrübəsi" mükafatına layiq görülüb




Azərbaycanın ən iri həyat sığortaçısı olan "PAŞA Həyat" Rumıniyanın Braşov şəhərində keçirilən "FIAR 2016 - Beynəlxalq Sığorta və Təkrarsığorta Forumu"nda xüsusi beynəlxalq mükafata layiq görülüb.

Şirkətin İctimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, "XPRIMM" Beynəlxalq Media Qrupu tərəfindən təşkil edilən forum çərçivəsində "PAŞA Həyat" Azərbaycanda "Ən yaxşı müştəri təcrübəsi" nominasiyası üzrə mükafata layiq görülüb.

Forumun işində və mükafatların təqdimetmə mərasimində "PAŞA Həyat" rəhbərlik səviyyəsində təmsil olunub.

Forum çərçivəsində müxtəlif nominasiyalar üzrə Şərqi Avropa və MDB ölkələrinin sığorta, təkrarsığorta və broker şirkətləri, həmçinin ictimai təşkilatları da mükafatlandırılıb.

Qeyd edək ki, Beynəlxalq Sığorta və Təkrarsığorta Forumu 1998-ci ildən təşkil edilir. Hər il tədbirdə 500-dən çox nümayəndə iştirak edir. Tədbirə Avropanın sığorta, təkrarsığorta, bank, lizinq, konsultant, audit, İT və Kommunikasiya sektoru şirkətlərinin rəhbər və mütəxəssislərindən ibarət iştirakçıları qatılır.

# Bakcell və "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İctimai Birliyi gənclər üçün iş imkanları yaradır

SOS UŞAQ KƏNDLƏRİ AZƏRBAYCAN

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin dəstəyi ilə "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İctimai Birliyi "Gənclərin Karyera və İnkişaf Mərkəzi" adlı layihənin icrasına başlayıb.

Layihə çərçivəsində yaradılan Gənclərin Karyera və İnkişaf Mərkəzi Bakı SOS Uşaq Kəndində yerləşir.

8 ay müddətində nəzərdə tutulan layihə SOS Uşaq Kəndlərində yaşayan yeniyetmələrin məşğulluq imkanlarının genişləndirilməsinə yönəlib. Layihənin əhatə etdiyi benefisiarlar əsasən valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və yeniyetmələrdir. Mərkəzin işə hazır vəziyyətə gətirilməsi üçün müvafiq təmir işləri aparılıb. Mart ayında mərkəzin maddi texniki bazası gücləndirilib, lazım olan ofis mebelləri və kompyuter avadanlıqları alınıb.

"SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası İB-nin veb-səhifəsinə gənclərin məşğulluğu bölümü əlavə olunub. Burada sözügedən layihə və tərəfdaşlar barədə ətraflı məlumat, müvafiq qanunvericilik və faydalı məlumat bazası, layihədən faydalananların CV bazası və məşğulluq imkanlarının əldə edilməsi üçün faydalı linklərin yerləşdirilməsi nəzərdə tutulub.

bakcell

"SOS Uşaq Kəndləri - Azərbaycan Assosiasiyası ilə korporativ sosial məsuliyyət sahəsində uzun illərdir əməkdaşlıq edirik. Xüsusi qayğıya ehtiyacı olan uşaqları, yeniyetmə və gəncləri əhatə edən layihələrə dəstək göstərmək bizim KSM proqramımızın əsas prioritetlərindən biridir. Biz Mərkəzdə təlim keçən gənclərin işlə təmin olunması istiqamətində də tərəfdaşlarımızla danışıqlar aparırıq",- deyə Bakcell şirkətinin baş marketinq və satış direktoru cənab, Fedja Hadziç bildirib.

# TANAP-a yeni səhmdar gələ bilər



"SOCAR Turkey Energy" 2016-cı ilin sonuna qədər TANAP layihəsinin səhmdarı olmaq niyyətindədir.

Bu barədə "SOCAR Turkey Energy"-nin İdarə Heyətinin sədri Zaur Qəhrəmanov deyib.

"Biz bu ilin sonunadək TANAP-ın səhmdarı olmaq niyyətindəyik. Təbii ki, proses bir qədər uzana bilər. Türkiyə tərəfi bununla bağlı müvafiq razılıq verməlidir. Azərbaycan tərəfi artıq əqdin bağlanması ilə bağlı razılığını verib", - deyə Z.Qəhrəmanov qeyd edib.

# Ən iri sement istehsalçısı ixraca hazırlaşır




Azərbaycanın ən iri sement istehsalçısı yaxın zamanda qonşu dövlətlərə sement ixracına başlaya bilər.

"Norm" MMC-nin Baş direktoru Hasan Yalçıkaya şirkətin bir sıra qonşu ölkələrdə araşdırma apardığını və nəticəyə uyğun şəkildə tədbirlər planı hazırlandığını bildirib:

"Hazırda xarici şirkətlər ilə danışıqlar aparılır və bir sıra qurumlar ilə ilkin razılıq əldə edilmişdir. Bu istiqamətdə fəaliyyət ixrac ediləcək məhsulların ümumi həcmində qeyri-neft məhsularının payını artırmaqla yanaşı, ölkəmizin valyuta ehtiyatlarının artırılmasına da xidmət edəcəkdir", - Hasan Yalçıkaya deyib.

MMC-nin direktoru qeyd edib ki, "Norm" sement zavodunun istifadəyə verilməsilə, 2015-ci il ərzində sement idxalının 75% azalmasında əhəmiyyətli rol oynamışdır.

### BAZARIN 30%-NƏ SAHİB OLUB

Hasan Yalçıkaya əlavə edib ki, "Norm" Sement zavodu qısa müddət ərzində Azərbaycanın sement bazarında aparıcı mövqeyə yüksəlmiş və ötən ildə sement bazarının 30%-nə sahib olmaqla bazarda liderə çevrilmişdir.

"Norm" Qafqazda ən böyük sement zavodudur. Zavodun istehsal gücü gündə 5 min ton kilnker, ildə isə 2 milyon ton sement təşkil edir.

### İLK DƏFƏ "AKKORD" İXRACA BAŞLAMIŞDI

Qeyd edək ki, "Akkord Sement" ötən ilin may ayından başlayaraq Azərbaycan tarixində ilk dəfə sement ixracını həyata keçirən şirkət olub. "Holcim Azərbaycan" şirkəti də sement ixrac etməyi planlaşdırır.

# İnformasiya-kommunikasiya texnologiyalarından istifadənin mövcud vəziyyəti və təhsil sistemində tətbiqinin üstünlükləri

## *İKT-nin təhsil sistemində tətbiqinin xüsusiyyətləri*

**Böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsi təhsilin bütün dövrlərində cəmiyyətin diqqət yetirdiyi başlıca məsələlərdən biri olub və bu gün də belədir. Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunduqdan sonra təhsilə yanaşma tərzi kökündən dəyişdi.**

*(əvvəli ötən sayımızda)*

Bakı Dövlət Universitetinin http:eu.bsu.az ünvanında yerləşən Virtual Universitet bağlı xarakter daşıyır, bu, o deməkdir ki, yalnız təhsil prosesi iştirakçıları – tələblər, müəllimlər, inzibatçılar daxil ola bilərlər.

**TACİS layihəsi "Cənubi Qafqazda Elektron Cəmiyyətin İnkişafı" (2005-2007)**

"Development of e Sosieties in South Caucasus" TACİS layihəsi AzRENA, təhsil assosiasiyası, Bakı Dövlət Universiteti və IMCAG alman şirkəti ilə birgə həyata keçirilmişdir.

Layihənin məqsədi informasiya texnologiyaları imkanlarından istifadə etmək və dünya təhsil sisteminə inteqrasiya hesabına təhsilin idarə edilməsi prosesi və sisteminin keyfiyyətinin yüksəldilməsidir.

**İndiana Universiteti və AzRENA Təhsil Assosiasiyası arasında Tərəfdaşıq Proqramı (2003-2006)**

ABŞ Tərəfdaşlıq Proqramının Distant Təhsil (DT) layihəsi İndiana Unuversiteti və AzRENA arasında - İU/AzRENA 2003-cü ildə imzalanmışdır və ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilirdi. AzRENA regional səviyyədə baza DT Mərkəzi kimi çıxış edirdi.

İnnovasiya təhsil metodları sahəsində aparıcı akademik Amerika müəssisəsi olan İndiana Universiteti AzRENA-nın bütün universitetlərinin tərəfdaşı rolunda çıxış edirdi və keyfiyyətli təhsil təcrübəsində Azərbaycanın tələblərinə cavab verən distant təhsilin genişləndirilməsi üzrə səyləri dəstəkləyirdi.

**Black Sen İntercannection (BSİ) project (2008-2010)**

2008-ci ilin martında başlamış BSİ layihəsi çərçivəsində Cənubi Qafqaz ölkələri arasında nəhəng GEANT2 Avropa tədqiqat şəbəkəsinə qoşulacaq regional tədqiqat və təhsil şəbəkəsi yaradılacaqdır. Bu layihə regionda ən iri layihə olmaqla, Qafqaz ölkələrinin tədqiqatçılarına Avropa ölkələrinin təhsil sahəsində elmi-tədqiqat işlərində bilavasitə iştirak etməyə imkan yaradacaqdır. Avropa Şurası bu layihəyə 1,4 milyon avro investisiya qoyur. AŞ nümayəndələri hesab edirlər ki, bu, regionun və Avropanın elmi müəssisələri arasındakı rəqəmsal uyğunsuzluğu aradan qaldırmağa imkan verəcəkdir.

BSİ layihəsi çərçivəsində rəqəmsal fərqlərin aradan qaldırılması məqsədilə Cənubi Qafqaz ölkələrinin GRENA (Gürcüstan), AzRENA (Azərbaycan) kimi milli tədqiqat və təhsil şəbəkə bazaları əsasında yüksək sürətlə şəbəkə bazası yaradılacaq, bu şəbəkənin GEANT2 Avropa şəbəkəsinə qoşulması nəticəsində Cənubi Qafqaz və Avropa arasında rəqəmsal körpü salınacaqdır.

BSİ layihəsinin işini Türkiyənin milli tədqiqat və təhsil şəbəkəsi TÜBİTAKULAKBİM koordinasiya edir. Bu layihə çərçivə proqramlarında koordinasiya edilən ən böyük layihədir.

**İnformasiya və Resurs Mərkəzi – Təhsil portalı**

2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı çərçivəsində Təhsil portalının yaradılması üzrə işlərin birinci mərhələsi sona çatdırılmışdır, İnformasiya və Resurs Mərkəzi orada mərkəzi yeri tutacaq.

Təhsil portalının funksiyaları 4 istifadəçi qrupuna bölünür: müəllimlər, şagirdlər, tələbələr, valideynlər.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tədris Mərkəzi**

3 noyabr 2008-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində yeni METCADCAMPUS Tədris Mərkəzinin açılış mərasimi keçirildi.

Bu Mərkəz Azərbaycan Memarlıq və İnşaat Universiteti və Türkiyənin informasiya texnologiyaları sahəsində işləyən NETCAD şirkətinin birgə səyləri ilə açılmışdır.

Bu Tədris Mərkəzinin əsas məqsədi müəllim və tələbələri memarlıq və inşaat sahəsində kompyuter proqramlarından istifadə üçün lazımi biliklərlə təmin etməkdən ibarətdir.



**Azərbaycan Dillər Universitetində informasiya-resurs kompleksinin açılışı**

Bu kompleks ölkənin ali təhsil müəssisələrinin Avropanın ali təhsil sisteminə inteqrasiyasına, Azərbaycan təhsil sisteminin dünya standartlarına müvafiq inkişafına kömək məqsədilə yaradılmışdır.

Kompleks İnternetə qoşulmuş 120 kompyuterlə təchiz edilib. Bununla yanaşı, kompleksdə British Counsil-ın 3000 informasiya kolleksiyası, amerikaşünaslığa aid və digər elm sahələri ilə bağlı 7500 adda elektron baza təqdim olunub.

Kompleksin elektron kitabxanasında dünyanın nüfuzlu elmi jurnalının mətn bazası ilə tanış olmaq mümkündür. Kompleksdə quraşdırılmış müasir avadanlıq video konfransların keçirilməsinə imkan verir.

**Azərbaycan Texniki Universitetinin (ATU) TEMPUS proqramı çərçivəsində layihələri**

ATU-da informatika və kompyuter texnikası kafedrasında bakalavr və magistrlər üçün yeni tədris proqramlarının işlənməsi və mövcud olanların modifikasiyası layihəsi hazırlanır. Layihə çərçivəsində yeni laboratoriyalar və kompyuter siniflərinin yaradılması, tədris fənlərinin azaldılması yolu ilə tədris proqramlarının modifikasiyası, beynelxalq ekspertlərin iştirakı ilə yeni proqramların hazırlanması, Azərbaycan Texniki Universitetinin bütün kompyuter siniflərini birləşdirən hesablama mərkəzinin yaradılması nəzərdə tutulur.

*(davamı gələn sayımızda)*

***P.Ə.Həsənova,***
*BDU-nun dosenti,*
*iqtisad elmləri doktoru*

# BVF-nin Azərbaycan üzrə missiyasının rəhbəri: “Yeni iqtisadi model Azərbaycan iqtisadiyyatını şaxələndirəcək”



**Mayın 31-də Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub.**

UNEC rektoru, professor Ədalət Muradovla görüşdə yeni iqtisadi şəraitlə bağlı ölkəmizdə makroiqtisadi vəziyyət, eləcə də biznes və investisiya mühitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən islahatlar barədə müzakirələr aparılıb.

Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi Azərbaycandakı son iqtisadi proseslər, aparılan struktur islahatları barədə danışıb. Ölkədəki iqtisadi durumun sürətlə dəyişdiyini bildirən missiya rəhbəri, bunu iqtisadi-siyasi tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi dəyərləndirib. Bildirib ki, ölkənin özəl və qeyri-neft sektorlarının inkişafını nəzərdə tutan yeni iqtisadi model Azərbaycan iqtisadiyyatını şaxələndirəcək. Hökumət doğru olaraq hazırkı dövrdə özəl sektorun dəstəklənməsini prioritet istiqamət kimi müəyyənləşdirib, deyən missiya rəhbəri Beynəlxalq Valyuta Fondunun atılan addımları yüksək qiymətləndirdiyini qeyd edib.

BVF-nin Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi tədiyyə balansı ilə bağlı müsbət trendin olmasını da vurğulayıb.

UNEC rektoru, professor Ə.Muradov bildirib ki, Azərbaycan iqtisadiyyatında mövcud çağırışlar, ilk növbədə, neftin qiymətinin dəyişkənliyi ilə bağlıdır. Azərbaycanda əvvəlki illərdə həyata keçirilən uğurlu siyasət bu çağırışlara layiqli cavab verməyə imkan verir. Belə ki, dövlət başçısı həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədi ilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri” barədə sərəncam verib.

Rektor Azərbaycanın Türkiyə və İranla iqtisadi əlaqələrini genişləndirdiyini, “İpək yolu” marşrutu üzrə müvafiq layihələr həyata keçirdiyini də diqqətə çatdırıb. Biznes və investisiya mühitinin yaxşılaşdırılmasından danışan Ə.Muradov, sahibkarlığın stimullaşdırılması məqsədilə bu sahədə yoxlamaların dayandırıldığını, lisenziyaların və icazələrin sayının kəskin azaldığını bildirib. Apelyasiya Şuralarının yaradıldığı, maliyyə bazarlarına nəzarətin gücləndirildiyi və investisiyaların təşviqi sahəsində bir sıra tədbirlərin həyata keçirildiyini söyləyib.

Bankların fəaliyyətindən söz açan rektor bildirib ki, Mərkəzi Bankın əsas məqsədi öz səlahiyyətləri çərçivəsində qiymət sabitlliyini təmin etmək olsa da, bu qurum ÜDM-nin artımını təmin edə biləcək obyektlərdən biri olmalıdır.

Azərbaycan neftlə zəngin olan çox az ölkələrdən biridir ki, neftin yüksək qiyməti hesabına əldə etdiyi gəlirlərdən səmərəli istifadə edib. Azərbaycanın iqtisadi inkişafının gələcəyinə dair aydın, müsbət qiymətləndirilə biləcək siyasi baxışı var. Ən vacibi, neft kapitalının insan kapitalına çevrilməsi siyasətidir ki, yüzlərlə gənc neft vəsaiti hesabına nüfuzlu xarici universitetlərdə təhsil alırlar. Əminəm ki, bu insan kapitalı Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verəcək.

# "Azəri-Çıraq-Günəşli"nin payçılarından biri layihəni tərk edir

Hindistanın "ONGC Videsh Limited" şirkəti "Azəri-Çıraq-Günəşli" (AÇQ) layihəsində payına düşən nefti satmaq niyyətindədir.

"Reuters" agentliyi xəbər verir ki, bu, "ONGC Videsh Limited" şirkəti ilə SOCAR arasında birgə müəssisə yaradılması ilə bağlı imzalanan müqavilədə əksini tapıb. Müqavilənin detalları açıqlanmır.

"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin işlənməsi haqqında müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb və elə həmin il dekabrın 12-də qüvvəyə minib.

Layihənin iştirakçıları BP (35,78%), ABŞ-ın "Chevron" (11,27%), "ExxonMobil" (8,0006%), Hindistanın "ONGC Videsh Limited" (2,72%), Yaponiyanın "Inpex" (10,96%), "Itochu" (4,3%), SOCAR (11,65%), Norveçin "Statoil" (8,56%), Türkiyənin TPAO (6,75%) şirkətləridir.

SOCAR Trading SA və ONGC Videsh Limited anlaşma memorandumu imzalayıb.

"SOCAR Trading"dən verilən məlumata görə, imzalanma mayın 27-də baş tutub.

İmzalanmış memorandum iki tərəfin satışdan gələn gəlirin optimallaşmasında təcrübənin mübadiləsi yolu ilə neft-qaz sənayesində əməkdaşlığını nəzərdə tutur.

Gərərgahı Cenevrədə yerləşən "SOCAR Trading" Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) marketinq bölməsi kimi Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yaxınlıqdakı digər yataqlarından hasil olunan Azərbaycan neftinin satışı üçün 2007-ci ilin dekabr ayında qeydiyyatdan keçib. 2016-cı il yanvar ayına olan vəziyyətə görə, "SOCAR Trading"in Cenevrə, London, Sinqapur, Dubay və Kalqaridəki beş əsas ticarət nümayəndəliklərində, eləcə də bir neçə digər nümayəndəlikdə olan 200-dən artıq əməkdaşı var.

# *“AtaTravel” MMC hər həftə sonu Qubaya turlar təşkil edir*

“AtaTravel” MMC 5 iyun 2016-cı il tarixindən başlayaraq hər həftə sonu Qubaya bir günlük turlar təşkil edir. Bir nəfər üçün turun qiyməti 22 AZN təşkil edir. Qiymətə komfortlu nəqliyyat, səhər yeməyi, çay süfrəsi, peşəkar foto-sessiya, tur rəhbər, Qeçreş meşəsi, Minarə dağı, Çənlibel gölünə və dağ şəlaləsinə ekskursiya daxildir. Həmçinin, proqrama Rixos Luna parka giriş də daxil edilib. Nəqliyyat “Excelsior Hotel Baku” otelinin qarşısından yola düşür. Daha geniş məlumat almaq üçün “AtaTravel” MMC-yə (994 12) 493-05-01 (daxili 104) və ya (050) 245 05 09 nömrəli mobil telefona zəng vurun.




“AtaHolding” Şirkətlər Qrupuna daxil olan “AtaTravel” MMC 2011-ci ildə təsis edilmişdir. “AtaTravel” turizm agentliyi dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edir. Şirkət öz müştərilərini mehmanxana, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta, viza ilə əlaqədar xidmətlərlə təmin edir.

# “İslam bankçılığı” mövzusunda təlim başa çatmışdır

**İqtisadiyyat Nazirliyinin “İslam bankçılığı” mövzusunda təliminin bağlanış mərasimi keçirilib.**



Müxtəlif dövlət və özəl sektorda fəaliyyət göstərən mütəxəssislərin, tədqiqatçıların, KİV nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan İnstitutun direktoru Vilayət Vəliyev iştirakçıları və qonaqları salamlayaraq, treyninqin təşkilatçılarına öz minnətdarlığını bildirərək, sertifikata layiq görülmüş şəxsləri təbrik edib.

Təlimin işinin müvəffəqiyyətlə başa çatdırılması münasibətilə təşkilatçıları, məruzəçi və dinləyiciləri təbrik edən Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Proqram koordinatoru cənab Mustafa Haşim Polat isə çıxışında TIKA-nın Azərbaycanda gördüyü işlər barəsində danışmış, İslam Bankçılığının iqtisadiyyatın inkişafındakı rolunu və bu treyninqin mühüm əhəmiyyətini vurğulamışdı.

İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin (İROİB-in) sədri Ruslan Atakişiyev təlimin proqramı, təşkili ideyası haqqında iştirakçılara məlumat verərək, treyninqin təşkilində dəstəyi olan bütün qurumlara bir daha öz minnətdarlığını bildirib.

Öz növbəsində Türk Katılım Bankalar Birliyinin (TKBB) nümayəndəsi Avukat Ümit Akkaya TKBB-nin Azərbaycanda İslam bankçılığının inkişafı ilə bağlı görəcəyi işlər barəsində, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun diroktoru Nazim İmanov AMEA İqtisadiyyat İnstitunun İslam Bankçılığı sahəsində Türkiyə ilə təcrübə mübadiləsi proqramı haqqında söhbət açaraq, belə tədbirlərin tez-tez keçirilməsinə ehtiyac olduğunu diqqətə çatdırıb.

Sonda təlimin məruzəçiləri İstanbul S.Zaim Universitenin professoru, Dr. İbrahim Güran Yumuşak, İstanbul Universitenin İlahiyyat Fakültesi professoru, Dr. Servet Bayındır öz növbəsində təlim iştirakçılarını təbrik etmişlər.

Qeyd edək ki, 22-27 may tarixlərində islam bankçılığı sahəsində kadr potensialının gücləndirilməsi məqsədilə təşkil edilən təlimin həmtəşkilatçıları İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TIKA), Türk Katılım Bankaları Birliyi (TKBB), Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, İstanbul Sabahattin Zaim Universiteti (İZU), İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi (İRÖİB) və İqtisadi Araşdırmalar və Tədris Mərkəzi (İATM) olmuşdur.

*MƏTANƏT*

# “AGBank” daha bir sosial layihəyə dəstək verdi



“AGBank” ASC-nin dəstəyilə 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi günündə Gənclərin Sağlam İnkişafı İctimai Birliyinin təşkilatçılığı Bakı Autizm İdman və Yaşam Klubunda autizmli uşaqlar arasında fiziki hərəkətli yarışma təşkil olunub. Yarışmanın məqsədi autizmli uşaqların normal həyat tərzi keçirməsinə, onların digərləri ilə ünsiyyətə girməsinə, ətraflarındakı dünyanı qəbul etməsinə yardımçı olmaqdan ibarətdir. “AGBank” autizmli uşaqların sosial adaptasiyası, bacarıqlarının inkişaf etdirilməsinə xidmət edən bu tədbiri dəstəkləməklə körpələrin cəmiyyətə inteqrasiyasına kömək edən bir addım atmış olub.

Ölkəmizdə maliyyə sektorunun aparıcı isimlərindən olan “AGBank” fəaliyyəti dövründə daim korporativ sosial məsuliyyət layihələrinə önəm verib. İndiyədək bankın təşəbbüsü və dəstəyilə uşaqlar və gənclərə yönəlik xeyli sayda sosial layihələr həyata keçirilib. “AGBank” tərəfindən uşaqlar arasında şahmat turniri, digər idman yarışmaları təşkil olunub. Gənclərin bilik və bacarıqlarının inkişafına xüsusi önəm verən “AGBank”-ın dəstəyilə tələbələr üçün çoxsaylı təlimlər, mübadilə proqramları təşkil olunub. Məhz bu sahədəki fəaliyyətinə görə "Gənclərə ən çox dəstək göstərən biznes təşkilatı" kimi “AGBank” "Fəxri gənc" mükafatına layiq görülüb. Ümumiyyətlə, bankın sponsorluğu ilə mədəniyyətimizin, incəsənətimizin və idmanımızın inkişafına yönəlik layihələr reallaşdırılıb.

“AGBank” bundan sonra da uşaq və gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasına imkan yaradan layihələri gerçəkləşdirəcək.

# Xarici markalar geyimləri Azərbaycanda istehsal etdirməyə başlayırlar

Azərbaycanın geyim sənayesində yeni trend başlayır. Artıq xarici markalar öz məhsullarını Azərbaycanda istehsal etdirib satışa verəcəklər. Səbəb Azərbaycan manatının ucuzlaşmasından sonra idxalın bahalaşması, yerli istehsalın inkişafı və daxili bazarın qorunması ilə bağlı verilən qərarlardır.

“Akkord Tekstil” MMC-nin direktoru İsmayıl Bayramov bildirib ki, artıq “Akkord Tekstil” bir sıra brendlər üçün geyimlər istehsal edir:

“Azərbaycan Prezidentinin son vaxtlar sahibkarlığın inkişafı ilə bağlı imzaladığı sərəncamlardan sonra, daxili bazar bizə yönləndirilmişdir. Artıq bir sıra markalar, köynək brendləri bizə müraciət edib, öz məhsullarını bizdə tikdirirlər. Eyni zamanda, İtaliya və Kanadadan iri müştərilər bizə sifarişlər veriblər. Hazırda fabrikimizdə günlük 1000 ədəd məhsul istehsal edən yeni bantımız qurulur. Bir ay sonra yeni bant istifadəyə veriləcəkdir. Bantın istifadəyə verilməsilə işçi sayı 50 nəfər də artacaqdır”.

İsmayıl Bayramov qeyd edib ki, tekstil sənayesi çox incə sahədir:

*“Tekstildə əsas nüans düzgün kəsimdir. Hal-hazırda bəzi müəssisələrdə kəsim paylarının düzgün verilməməsi və düzgün avadanlıqlardan istifadə olunmaması bir məhsula düşən xammalın artıq olmasına gətirib çıxarır. Bu da qiymətə təsir edən əsas amildir. Bizim fabrikimiz Yapon avadanlığından istifadə etməklə kəsimdə itkini ən aşağı səviyyəyə gətirmişdir. Bizdə kəsimdə itki 3% civarındadır. İstehsal etdiyimiz məhsulda xəta yox dərəcəsindədir və bu Yapon avadanlıqlarından istifadə ilə bağlıdır. Əl əməyindən tamamilə az istifadə olunur. Keyfiyyətimiz Türkiyə istehsalçılarının və digər ölkələrin istehsalçılarının keyfiyyətindən aşağı qalmır. Qiymətlərimiz də Türkiyədən idxal olunan məhsulların qiymətindən aşağıdır”.*

İsmayıl Bayramov əlavə edib ki, geyimlərin istehsalında yerli və idxal parçalardan istifadə olunur:

*“Köynək və xüsusi geyimlərin istehsalı üçün parçanı Türkiyədən də alırıq. Yaxşı olar ki, ölkəmizdə toxuculuq müəssisələrinin sayı daha da artırılsın, parçaları tamamilə yerli istehsalçılardan alaq.*

*Sifarişlərimiz günbəgün artır. Biz xammalın və geyimin bir yerdə istehsalını planlaşdırırıq. Əyirici müəssisəmizin fəaliyyətə başlaması daha keyfiyyətli və ucuz məhsul istehsal etməyimizə gətirib çıxaracaqdır”.*

Qeyd edək ki, Ağstafada fəaliyyət göstərən “Akkord Tekstil” MMC geyim sənayesində iri müəssisələrdən biridir. MMC-nin fabrikində xüsusi təyinatlı geyimlər, hərbi geyimlər, məktəbli geyimləri, kişi və qadın geyimləri istehsal edilir.

***Seymur YUNUSOV***

# Təhlükəsiz İnterneti Azercell-lə Yaşa

Azercell İnternetdə uşaqların müdafiəsinə xüsusi önəm verən İnternet təhlükəsizlik sahəsində Kaspersky Lab şirkəti ilə əməkdaşlığa başlayıb. Azercell-in təqdim etdiyi üç yeni xidmət istənilən yaşda olan istifadəçiyə özünü İnternetdə daha təhlükəsiz hiss etməyə imkan yaradacaq.

“Uşaqlar gələcəyimizdir və onların sağlam böyüməsi cəmiyyətin gələcək inkişafının əsasını təşkil edir.” Bu fikirlər Azercell-in Kaspersky Lab şirkətinin əməkdaşlığı ilə həyata keçirdiyi “Azercell-lə İnternet təhlükəsizdir!” layihəsinin təqdimatında səslənib.

1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf edən tədbirdə ilk öncə şirkətin prezidenti Vahid Mürsəliyev çıxış edərək uşaqların daim qayğı və diqqətə ehtiyacları olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycanın lider mobil rabitə şirkəti olaraq Azercell cəmiyyətin, xüsusilə uşaqların informasiya təhlükəsizliyi sahəsinə diqqət yetirməyə bilməzdi. O, həmçinin kiber-təhlükəsizlik sahəsinin liderlərindən olan Kasperky Lab şirkətinə əməkdaşlığa görə təşəkkürünü bildirib və Azercell üzərindən əldə ediləcək məhsulların nəinki uşaqların, eləcə də böyüklərin internetdən təhlükəsiz istifadəsini təmin edəcəyini əlavə edib.




**3 yeni məhsulunu təqdim edib**

Layihə çərçivəsində İnternet şəbəkəsində təhlükəsizliyə yönələn 3 yeni məhsul təqdim olunub. Bunlardan birincisi - “Universal Müdafiə” xidməti adlanır və Kaspersky Internet Security vasitəsilə istənilən cihazın müdafiəsini təmin edir. Bu xidmət vasitəsi ilə istifadəçilər həm özlərinin, həm uşaqlarının, bütün bankçılıq əməliyyatlarının təhlükəsizliyini, həmçinin sosial şəbəkələrdə ünsiyyətin məxfiliyini təmin edə bilərlər. Belə ki, yeni xidmət fayl, proqram və veb səhifələri müdafiə edir, saxta veb səhifələr, müdafiəsiz Wi-Fi şəbəkələr vasitəsilə şəxsi məlumatın oğurlanmasına mane olur, zərərverici proqramlar tərəfindən faylların bloklanmasının qarşısını alır, istifadəçini kompyuterinin kamerası vasitəsilə gizli güdülməkdən qoruyur. Ən önəmlisi isə uşaqları İnternetin neqativ təsirindən müdafiə edir. Xidmətdəki Təhlükəsiz Proqram Rejimi yalnız etibarlı proqramları istifadə etməyə imkan verir və bütün şübhəli proqramların əməliyyatını məhdudlaşdırır.

İkinci məhsul olan “Android üçün müdafiə” xidməti əsasən Android əməliyyat sistemi üçün istifadə olunur və Kaspersky Internet Security - Android üzərindən işləyən istənilən cihazın müdafiəsini təmin edir. Məhsul cihazın itkisi və ya oğurluğu zamanı onun axtarışı və ya məlumatın silinməsi kimi məsafədən idarə olunmasını, mümkün edir. Bundan əlavə, xoşagəlməz zəng və SMS-lərin filtrasiyası, kənar gözlərdən gizlədilmiş şəxsi kontaktlar da məxfi saxlanılır.

Üçüncü məhsul “Valideyn nəzarəti” adlanır. O, populyar olan əksər əməliyyat sistemləri ilə işləyən Kaspersky Safe Kids müdafiə proqramı vasitəsilə istifadə olunur. Məhsul gənc istifadəçilərin arzulanmayan veb-səhifələrə girişini məhdudlaşdırır, uşaqların İnternetdə istifadə etdiyi proqramlara və sərf etdiyi vaxta nəzarət edir, uşaqların İnternetdə aktivliyi və smartfon vasitəsilə göndərdiyi SMS-lər haqqında detallı məlumatları valideynlərə ötürür, və geoməkan funksiyası sayəsində onların uşaqların yerini müəyyən edir.

Əməkdaşlığa dair fikirlərini bildirən Kasperky Lab şirkətinin Azərbaycandankı rəsmi nümayəndəsi Müşviq Məmmədov isə qeyd etmişdir: “Azərbay-canın aparıcı telekommukasiya şirkəti Azercell-lə tərəfdaş olmaqdan məmnunuq. İndi Azercell-in geniş müştəri bazası kiber-təhdidlərə qarşı etibarlı qorunmaq üçün sürətli və asan həllər əldə edəcək”.

Tədbiri maraqlı edən məqamlardan biri də konfransa KİV nümayəndələrinin övladları ilə birgə dəvət olunması olub.

*MƏTANƏT*

# “Təhlükəsiz İnterneti Azercell-lə Yaşa”

Azercell İnternetdə uşaqların müdafiəsinə xüsusi önəm verən İnternet təhlükəsizlik sahəsində Kaspersky Lab şirkəti ilə əməkdaşlığa başlayıb. Azercell-in təqdim etdyi üç yeni xidmət istənilən yaşda olan istifadəçiyə özünü İnternetdə daha təhlükəsiz hiss etməyə imkan yaradacaq.

“Uşaqlar gələcəyimizdir və onların sağlam böyüməsi cəmiyyətin gələcək inkişafının əsasını təşkil edir.” Bu fikirlər Azercell-in Kaspersky Lab şirkətinin əməkdaşlığı ilə həyata keçirdiyi “Azercell-lə İnternet təhlükəsizdir!” layihəsinin təqdimatında səslənib.




1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə təsadüf edən tədbirdə ilk öncə şirkətin prezidenti Vahid Mürsəliyev çıxış edərək uşaqların daim qayğı və diqqətə ehtiyacları olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycanın lider mobil rabitə şirkəti olaraq Azercell cəmiyyətin, xüsusilə uşaqların informasiya təhlükəsizliyi sahəsinə diqqət yetirməyə bilməzdi. O, həmçinin kiber-təhlükəsizlik sahəsinin liderlərindən olan Kasperky Lab şirkətinə əməkdaşlığa görə təşəkkürünü bildirib və Azercell üzərindən əldə ediləcək məhsulların nəinki uşaqların, eləcə də böyüklərin internetdən təhlükəsiz istifadəsini təmin edəcəyini əlavə edib.

Tədbirdə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününün tarixi ilə bağlı qısa məlumat da açıqlanıb. Daha sonra “Ümidli Gələcək” gənclər təşkilatının layihələr üzrə meneceri Ruhanə Əhmədova, Azercell-in Yeni Texnologiyalar, Layihə və Partnyorluq İdarəetmə şöbəsinin rəhbəri Cəmaləddin Həsənov və Kasperky Lab-ın Azərbaycan üzrə regional nümayəndəsi Müşviq Məmmədov “Azercell-lə İnternet təhlükəsizdir!” layihəsi haqqında məlumat veriblər.

Layihə çərçivəsində İnternet şəbəkəsində təhlükəsizliyə yönələn 3 yeni məhsul təqdim olunub. Bunlardan birincisi - “Universal Müdafiə” xidməti adlanır və Kaspersky Internet Security vasitəsilə istənilən cihazın müdafiəsini təmin edir. Bu xidmət vasitəsi ilə istifadəçilər həm özlərinin, həm uşaqlarının, bütün bankçılıq əməliyyatlarının təhlükəsizliyini, həmçinin sosial şəbəkələrdə ünsiyyətin məxfiliyini təmin edə bilərlər. Belə ki, yeni xidmət fayl, proqram və veb səhifələri müdafiə edir, saxta veb səhifələr, müdafiəsiz Wi-Fi şəbəkələr vasitəsilə şəxsi məlumatın oğurlanmasına mane olur, zərərverici proqramlar tərəfindən faylların bloklanmasının qarşısını alır, istifadəçini kompüterinin kamerası vasitəsilə gizli güdülməkdən qoruyur. Ən önəmlisi isə uşaqları İnternetin neqativ təsirindən müdafiə edir. Xidmətdəki Təhlükəsiz Proqram Rejimi yalnız etibarlı proqramları istifadə etməyə imkan verir və bütün şübhəli proqramların əməliyyatını məhdudlaşdırır.

İkinci məhsul olan “Android üçün müdafiə” xidməti əsasən Android əməliyyat sistemi üçün istifadə olunur və Kaspersky Internet Security - Android üzərindən işləyən istənilən cihazın müdafiəsini təmin edir. Məhsul cihazın itkisi və ya oğurluğu zamanı onun axtarışı və ya məlumatın silinməsi kimi məsafədən idarə olunmasını, mümkün edir. Bundan əlavə, xoşagəlməz zəng və SMS-lərin filtrasiyası, kənar gözlərdən gizlədilmiş şəxsi kontaktlar da məxfi saxlanılır.

Üçüncü məhsul “Valideyn nəzarəti” adlanır. O, populyar olan əksər əməliyyat sistemləri ilə işləyən Kaspersky Safe Kids müdafiə proqramı vasitəsilə istifadə olunur. Məhsul gənc istifadəçilərin arzulanmayan veb-səhifələrə girişini məhdudlaşdırır, uşaqların İnternetdə istifadə etdiyi proqramlara və sərf etdiyi vaxta nəzarət edir, uşaqların İnternetdə aktivliyi və smartfon vasitəsilə göndərdiyi SMS-lər haqqında detallı məlumatları valideynlərə ötürür, və geoməkan funksiyası sayəsində onların uşaqların yerini müəyyən edir.

Əməkdaşlığa dair fikirlərini bildirən Kasperky Lab şirkətinin Azərbaycandankı rəsmi nümayəndəsi Müşviq Məmmədov qeyd etmişdir: “Azərbaycanın aparıcı telekommukasiya şirkəti Azercell-lə tərəfdaş olmaqdan məmnunuq. İndi Azercell-in geniş müştəri bazası kiber-təhdidlərə qarşı etibarlı qorunmaq üçün sürətli və asan həllər əldə edəcək. PK istifadəçiləri və Android platforması ilə işləyən cihaz sahiblərinin müdafiəsi üçün təqdim etdiyimiz məhsullar dəyərli məlumatların qorunmasında və İnternet şəbəkəsindəki fəaliyyətlər üçün rahat və təhlükəsiz mühit yaratmaqda Azərbaycandakı bir çox ailələrə yardımçı olacaq. Əsas diqqəti İnternetdən daha fəali istifadə edən və orda fərqli təhlükələrlə üzləşə bilən uşaqların təhlükəsizliyinə ayırıcayıq”.

Tədbiri maraqlı edən məqamlardan biri də konfransa KİV nümayəndələrinin övladları ilə birgə dəvət olunması olub. Tədbirin fəal içtirakçıları və kommunikasiya dəstəkçiləri “Active Moms Club” analar cəmiyyətinin valideynləri də təqdimat mərasiminə övladları ilə birlikdə qatılıblar. Rəsmi hissədən sonra uşaqlara və tədbirin qonaqlarına Pantomima teatrının “Fəlakət və insan” tamaşası təqdim olunub və hər kəs tərəfindən böyük maraqla qarşılanıb. Tədbirin sonunda qonaqlara tədbirdə sözü gedən təhlükəsizlik məhsullarından 6 ay müddətində pulsuz istifadə etmək üçün kodlar da daxil olmaqla dəyərli hədiyyələr təqdim olunub.


# SILK VEY BANK Açıq Səhmdar Cəmiyyəti MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR BALANS HESABATI

**31 DEKABR 2015-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2015-ci il | 31 dekabr 2014-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Nağd vəsaitlər və Azərbaycan Respublikası Mərkəzi Bankındakı pul vəsaitləri | 5 | 10,740 | 12,331 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 9,694 | 9,937 |
| Müştərilərə verilmiş kreditlər | 7, 27 | 335,729 | 174,254 |
| Ödəniş tarixinədək saxlanılan investisiyalar | 9 | - | 21,975 |
| Əmlak və avadanlıq | 8 | 3,704 | 4,996 |
| Qeyri-maddi aktivlər | | 98 | 65 |
| Digər aktivlər | 10 | 1,988 | 3,273 |
| **CƏMİ AKTİVLƏR** | | **361,953** | **226,831** |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklara ödənilməli vəsaitlər | 11 | 105,811 | 68,279 |
| Müştəri depozitləri | 12, 27 | 149,240 | 53,045 |
| Digər borc vəsaitləri | 13 | 2,543 | 2,260 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | - |
| Təxirə salınmış vergi öhdəliyi | 21 | 110 | 124 |
| Digər öhdəliklər | 14 | 805 | 864 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **258,509** | **124,572** |
| **KAPİTAL:** | | | |
| Səhmdar kapitalı | 15 | 101,545 | 99,168 |
| Əmlakın yenidənqiymətləndirmə ehtiyatı | 8 | - | 345 |
| Bölüşdürülməmiş mənfəət | | 1,899 | 2,746 |
| **CƏMİ KAPİTAL** | | **103,444** | **102,259** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **361,953** | **226,8** |

**31 DEKABR 2015-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
*(Manatla ifadə olunana hər səhm üzrə mənfəət istisna olmaqla Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2015-ci il tarixinə bitən il | 31 dekabr 2014-cü il tarixinə bitən il |
|---|---|---|---|
| Faiz gəliri | 16,27 | 24,121 | 20,277 |
| Faiz xərci | 16,27 | (12,833) | (7,394) |
| Faiz hesablanan aktivlər üzrə ehtiyatdan əvvəl xalis faiz gəliri | | 11,288 | 12,883 |
| Faiz hesablanan aktivlər üzrə ehtiyat | 17 | (6,217) | (6,174) |
| **Xalis faiz gəliri** | | **5,071** | **6,709** |
| Əmlak və avadanlığın dəyərsizləşməsi xalis zərər | 8 | (1,149) | - |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 18 | 5,467 | 2,052 |
| Haqq və komissiya gəlirləri | 19,27 | 4,297 | 3,399 |
| Haqq və komissiya xərci | 19 | (1,257) | (778) |
| Digər əməliyyatlar üzrə ehtiyat | 17 | 605 | (294) |
| Digər gəlirlər | | 368 | 107 |
| **Xalis qeyri-faiz gəliri** | | **8,331** | **4,486** |
| **Əməliyyat gəliri** | | **13,402** | **11,195** |
| Əməliyyat xərcləri | 20,27 | (10,911) | (7,942) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **2,491** | **3,253** |
| Mənfəət vergisi xərci | 21 | (961) | (674) |
| **İl üzrə xalis mənfəət** | | **1,530** | **2,579** |
| Digər məcmu gəlirlər | | - | - |
| **Cəmi il üzrə məcmu gəlir** | | **1,530** | **2,579** |
| HƏR SƏHM ÜZRƏ MƏNFƏƏT (AZN ilə) | 22 | 2 25 | 3 80 |


# Müsabiqənin nəticələri açıqlandı



**İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və "Azərsu" ASC -nin birgə təşkil etdikləri "Əhalinin içməli su təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.**

Mükafatlandırma mərasimi "Azərsu" ASC-nin Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksində keçirilib. Tədbirdə "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, Fondun icraçı direktoru Vüqar Səfərli, habelə ölkənin 30-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə əsaslı yenidənqurmadan çıxmış Kompleksin fəaliyyəti, habelə Ceyranbatan su anbarından əhaliyə verilən suyun təmizlənmə prosesi ilə tanış olublar.





Tədbiri giriş sözü ilə açan "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov qonaqları salamlayaraq son illər əhalinin keyfiyyətli su ilə təminatı sahəsində kompleks tədbirlərin həyata keçirildiyini, bu sahədə müasir infrastruktur və texnologiyaların tətbiq edildiyini diqqətə çatdırıb. O, Fondla birgə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin ölkənin su təsərrüfatının müasirləşdirilməsi və əhalinin içməli suya tələbatının ödənilməsi istiqamətində görülən işlərin ictimaiyyətə dolğun şəkildə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb.

Sonra Vüqar Səfərli media nümayəndələrinin iştirakı ilə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksində keçirilən tədbiri jurnalistlərin sözügedən müəssisənin fəaliyyəti, suyun təmizlənməsi prosesi, habelə burada quraşdırılmış müasir qurğularla əyani tanışlığı baxımından yüksək dəyərləndirib. V.Səfərli iyun ayının 5-nin ölkəmizdə “Su təsərrüfatı və meliorasiya işçiləri günü” kimi qeyd olunduğunu diqqətə çatdıraraq "Azərsu" ASC-nin rəhbərliyini və çoxsaylı kollektivini media nümayəndələri adından qarşıdan gələn peşə bayramı münasitilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

İcraçı direktor Fondun təşkilatçılığı ilə 2016-cı il martın 31-də KİV rəhbərlərinin "Azərsu" ASC-də görüşünün keçirildiyini, aprel ayının 1-də isə "Əhalinin içməli su təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqənin elan edildiyini diqqətə çatdırıb. V.Səfərli bildirib ki, müsabiqənin keçirilməsində məqsəd Azərbaycanda su təsərrüfatının inkişafı və infrastrukturun yenidənqurulması sahəsində həyata keçirilən tədbirlərin ictimaiyyətə çatdırılmasında peşəkar jurnalist əməyini stimullaşdırmaq, jurnalistlərin peşəkarlıq səviyyəsini yüksəltmək və sosial vəziyyətlərini yaxşılaşdırmaq olub.

İcraçı direktor aprelin 1-dən may ayının 20-dək keçirilən müsabiqəyə 51 fərdi jurnalist tərəfindən yazının təqdim olunduğunu bildirib: "Yazılar Fondun 3 nəfər eksperti, o cümlədən "Azərsu" ASC-ni təmsil edən ekspert tərəfindən qiymətləndirilib: Müsabiqənin elanında göstərilmiş şərtlərə əsasən, 6 nəfər jurnalistə əsas, 10 nəfərə isə həvəsləndirici mükafatların verilməsi qərara alınmışdı. Lakin müsabiqəyə təqdim olunan yazıların çoxluğu, habelə jurnalistlərin zəhməti nəzərə alınaraq, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovla əldə olunmuş razılığa əsasən, həvəsləndirici yerlərin sayı daha 5 ədəd qaldırıldı. Eyni zamanda, nisbətən az bal toplamış 19 nəfərin 100 manat məbləğində mükafatlandırılması qərara alındı".

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.

# 40-a yaxın sosial binanın tikintisinə başlanılacaq

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən tezliklə Gəncədə 40-a yaxın çoxmərtəbəli sosial binanın tikintisinə başlanılacaq.**

Bu barədə ADAU-nun baş binasında 28 May-Respublika Gününə həsr olunan tədbirdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı Elmar Vəliyev Gəncədə reallaşdırılması nəzərdə tutulan sosial-iqtisadi inkişaf layihələri haqqında məlumat verərkən deyib.

Elmar Vəliyev qeyd edib ki, son illərdə Gəncədə memarlıq həlli ilə diqqət çəkən yüksək mərtəbəli binaların tikintisi çoxalsa da şəhər sakinlərinin, xüsusilə də yeni ailə quran gənclərin mənzillə təminatına ciddi ehtiyac var. Odur ki, yaxın vaxtlarda Gəncədə 40 yaxın çoxmərtəbəli sosial binanın tikintisi planlaşdırılır. Daxilində hər bir şəraiti olacaq mənzillər sakinlərə, yeni ailə quran gənclərə ən münasib qiymətlərlə, güzəştli şərtlərlə, 25 illik ipoteka krediti ilə veriləcək.

# Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

KİVDF

Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqə elan edir.

Müsabiqənin məqsədi Gəncə şəhərinin sosial-iqtisadi və ictimai həyatındakı proseslərin ictimaiyyətə daha yaxından çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

"Gəncə şəhərinin sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda keçirilən müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbul qaydaları, tələb olunan sənədlərlə ətraflı olaraq www.kivdf.gov.az saytından məlumat ala bilərsiniz.

Yazıların qəbulu 03 iyun 2016-cı il tarixdə başlayır, 08 iyul 2016-cı il tarixdə başa çatır.

Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna şəxsən təqdim olunmalıdır.

**Müsabiqədə**
**I yer üçün bir nəfər (800 AZN)**
**II yer üçün iki nəfər (600 AZN)**
**III yer üçün üç nəfər (400 AZN)**
yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, 10 yazı müəllifinə (200 AZN) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

**Ünvan: Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.**

**Əlaqə telefonları:**
(012) 537 19 45; (012) 537 19 41;
**Elektron ünvan:**
info@kivdf.gov.az, kivdf.info@gmail.com
**Sayt: www.kivdf.gov.az**

# RADİO REKLAMI VƏ YA RADİODA REKLAM

*(əvvəli ötən sayımızda)*

• Verilişlər arasında fasilələrdə səslənə bilən reklam məzmunlu mahnı;
• Reklam müsabiqəsi;
• Radioda müxtəlif radio verilişlərə daxil olan gizli reklam.

Həcminə və əhatə dairəsinə görə aşağıdakılar fərqləndirilir:

• **"dəqiq" radio reklamı.** Bu zaman elanlar ayrıca bir radiostansiyada yerləşdirilir. O, bütün radio reklamın 80%-ni təşkil edir, onun geniş yayılması çevikliyin nəticəsidir;
• **radio şəbəkələri:** Bunlar məftilli kanallar üzrə bir və ya bir neçə şəbəkələrlə, rabitə vasitəsilə verilişlərin eyni zamanda translyasiyasını təmin edən bir qrup yerli filiallardır.




Tətbiq yerinə görə radiostansiyalarda, metroda, yerüstü nəqliyyatda, idarə və təşkilatlarda, mağazalarda, topdansatış yarmarkalarında, sərgilərdə və vernisajlarda, teatrlarda və kinoteatrlarda radio reklamı ayırırlar.

Əksəriyyət radiostansiyalar tərəfindən reklamvericilərinə təqdim edilən radio reklamın bir neçə geniş yayılmış formaları mövcuddur. Baxmayaraq ki, radio reklamın yeni səmərəli formalarının axtarışı daimi olaraq aparılır, ənənəvi və sınaqdan keçirilmiş reklam vasitələri ən tələb olunanlar arasında aparıcı yer tutur:

**1. Reklam blokunda reklam çarx.** Reklamverici reklam blokunda yer alır və o, proqramda və ya proqramlararası fasilədə reklam pauzasında (fasilə-sində) translyasiya olunur. Alınmış zaman (10, 15 , 20, 30 və 60 saniyəyə qədər müddət) ərzində reklam keçicisinin təqdim etdiyi reklam çarxı translyasiya olunur.

Translyasiyaların miqdarı və onların vaxtı, eləcə də blokda çarxın yeri (başlanğıcı, ortası və ya sonu) reklam vaxtının alqısı (satqısı) üçün müqavilənin (kontraktın) bağlanması prosesində tərəflərin razılaşdırdığı media-planın son redaksiyasında müəyyən olunur.

**2. Radioproqramın sponsorluğu.** Radiostansiya tərəfindən translyasiya olunan proqram sponsorun pulu hesabına tam və ya qismən icra oluna bilər və o, buna görə öz reklamını yerləşdirmək üçün müəyyən miqdar vaxt əldə edir (proqramın əvvəlində, ortasında, sonunda, eləcə də anonslar vaxtı). Bəzi hallarda sponsor digər reklam imkanları əldə edir: proqramın aparıcısı tərəfindən sponsorların və ya reklam obyektinin elan olunması, proqrama reklam obyektinin (product Placement) inteqrasiya olunması, interaktiv layihələrdə (müsabiqələrdə, viktorinalarda) sponsorun iştirakı, public (ictimai) tədbirlərin sponsor və radiostansiyalar tərəfindən birgə təşkili və s. Reklam blokundan fərqli olaraq, sponsor xəbəri, bir qayda olaraq, proqramın tam qiymətli və mükəmməl hissəsidir. Sponsor doldurulması (tamamlanması) radioda sponsorluq edilən proqramın xronometrajından, mövzusundan və məzmunundan asılıdır.

**3. Radio translyasiyanın sponsorluğu.** Yüksək reytinqlə proqnozlaşdırılan bəzi nüfuzlu reportaj proqramları (məsələn, idman oyunları) translyasiyanın sponsorluğu praktikasını tətbiq edirlər, bu o deməkdir ki, bu zaman sponsor translyasiya hüquqlarının alınması üçün və öz reklamını yerləşdirmək məqsədilə müəyyən vaxt əvəzində onun texniki dəstəyinin təmin edilməsi üçün bütün xərcləri ödəyir. Hadisəyə maraq çox yüksək olan hallarda (həmçinin translyasiya hüquqlarının qiyməti yüksək olan zaman) sponsor pulunda (inhisar növlərindən biri) öz aralarında reklam vaxtını bölüşdürən, birbaşa rəqiblər olmayan bir neçə şirkət birləşir.

**4. Dəqiq radio reklamı.** Reklam vericisi ümumi reklam blokundan kənarda müəyyən edilmiş proqramda (məsələn, hava proqnozunda) reklam çarxının translyasiyası vaxtını (və ya özünün xatırlanmasının) hər hansı bir xüsusi formasını əldə etmək hüququnu) alır.

**5. Xatırlama.** Proqramın aparıcısı tərəfindən reklam vericinin adının və ya reklam obyektinin bir və ya bir neçə dəfə xatırlanması.

**6. Studiyada müsahibə.** Proqramın aparıcısının reklam vericisindən və ya onun nümayəndələrindən götürdüyü informasiya-reklam xarakterli tematik müsahibə.

**7. Radio elanı.** Reklam informasiya blokunda diktor tərəfindən oxunan reklam informasiyası. Radio reklamın bu növü kiçik büdcəli reklam vericisinə yönəlibdir və yerli radiostansiyalarda təqdim edilir.

**8. Radio jurnal.** İnformasiya reklam xarakterli tematik radio verilişi.

Müxtəlif radiostansiyalar (radio kanalları) efir vaxtı satışın hesablanmasının müxtəlif sistemindən istifadə edir. O, saniyələrlə və ya dəqiqələrlə ölçülə, eləcə də ciddi səslənmə vaxtına (çarxın müddəti 5 saniyəyə bölünə bilər) bağlana bilər. Bu, radioda istifadə olunan veriliş proqramından (efirin avtomatlaşması və reklam planlaşdırıcısı üçün proqramdan) asılıdır.

Spotların orta davamiyyət müddəti hazırda MDB ölkələrində adətən 20-40 saniyə təşkil edir. ABŞ-da ənənəvi olaraq daha uzun spotlar 60 saniyədən 120 saniyəyə qədər qəbul edilmişdir.

ABŞ-da radio reklamın qızıl əsri 30-cu illərdə olmuşdur. Bütün reklamlar bilavasitə mikrofon qarşısında, radio yazısı olmadan diktorlar tərəfindən oxunmuşdur. Lakin bu, öskürmə, sözlərdə hıqqıldamaq, dili dolaşmaq, təsadüfi səhvlərə yol vermək kimi problemlərə gətirib çıxarırdı.

Radio reklamı mahiyyətcə "köpük operası" janrının banisi olmuşdur. Birinci əsl "köpük operası" "Betty and Bob" hesab olunur (1932-ci ilin 10 oktyabr tarixində gedən ilk radio verilişi). Bundan sonra bir çox digərləri yarandı. 30-cu illərdə həmçinin "köpük operası" adı formalaşdı, belə ki, onların dinləyici auditoriyası amerikalı evdar qadınlar, verilişin sponsorları isə sabun və yuyucu vasitələrin istehsalçıları idilər. 40-cı illərdə köpük operaları televiziyaya keçdi.

*(davamı gələn sayımızda)*

*F.M.Qarayev,*
*BDU-nun dosenti*

# Azərbaycan Gürcüstandan elektrik qatarları alacaq

Gürcüstan Vaqon Təmiri Zavodu yaxın zamanlarda Azərbaycana elektrik qatarları tədarük edəcək. Tezliklə bununla bağlı razılaşmanın rəsmiləşdirilməsi gözlənilir.

"Biznes-Qruziya" saytının verdiyi məlumata görə, bunu "Gürcüstan Dəmir Yolları" şirkətinin Müşahidə Şurasının həmsədri Nino Tsilosani bildirib.

"İndiyədək zavod Azərbaycana ancaq qatarlar tədarük edirdi. Ümumiyyətlə, Azərbaycan, Ermənistan və Gürcüstanda sovet dövrünün elektrovozları hərəkət edir. Lakin MDB-də onların istehsalı ancaq Rusiya, Ukrayna və Gürcüstanda həyata keçirilir. Biz elektrovozların qonşu dövlətlərə tədarük olunması üçün intensiv danışıqlara başlamağı planlaşdırırıq. Onlara sərfəli qiymətlər təklif edə bilərik", - deyə N.Tsilosani qeyd edib.

Şirkət rəsmisi əlavə edib ki, Gürcüstan zavodunun bazasında elektrovozların istehsalının təşkili planlaşdırılır: "Bu vaxta kimi Gürcüstanda lokomotivlər yığılmırdı, yalnız elektrik qatarları və vaqonlar istehsal edirdik. Hələlik texniki məsələlər və iş prosesi ilə bağlı danışıqlar gedir. Təxminən 50 mln. dollar həcmində böyük investisiya lazımdır. Çin şirkəti ilə birgə müəssisənin yaradılması ideyasını nəzərdən keçiririk. Beləcə, istehsalın 50%-i Gürcüstanda, qalan hissəsi isə Çində reallaşdırılacaq".





İDEAL DİZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az


# Azercell-in prezidenti "İlin şirkət rəhbəri" seçildi




Ölkənin lider mobil operatoru Azercell Telekom-un prezidenti Vahid Mürsəliyev nüfuzlu beynəlxalq "The Business Year" dərgisi tərəfindən "İlin şirkət rəhbəri" mükafatına layiq görülüb. Vahid Mürsəliyev istehlakçıların məlumatlandırılması və maarifləndirilməsi, həmçinin Azərbaycanda pərakəndə satış təcrübəsinin səviyyəsini yüksəltmək üçün innovativ vasitə olan "Azercell Ekspress" Ofisin yaradılmasına görə bu mükafatla təltif olundu. "İlin şirkət rəhbəri" mükafatı müxtəlif sahələrdə böyük uğurlar əldə edən rəsmi şəxslərə, kommersiya və qeyri-hökumət strukturlarına rəhbərlik edən şəxslərə təqdim olunur. Mükafatı Azercell-in rəhbərinə AR Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov 25 may tarixində FourSeasons otelində baş tutan təntənəli mərasimdə təqdim edib.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, KİV-in və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mükafatın təqdimat mərasimində çıxış edən Vahid Mürsəliyev Azercell-in Azərbaycanda telekommunikasiya sahəsinin inkişafında oynadığı roldan, gələcək perspektivlərdən danışıb. Lider operatorun qeyri-neft sektorunda ölkəmizin ən iri vergi ödəyicisi olduğunu bildirən şirkətin rəhbəri gələcəkdə də Azərbaycan iqtisadiyyatına töhfə verəcəklərini söyləyib.

Məlumat üçün bildirək ki,"The Business Year" dünyanın ayrı-ayrı bölgələrində iqtisadi prosesləri yaxından izləyən, onu peşəkar şəkildə işıqlandıran, təhlil edən və müstəqil təcrübələri öz auditoriyası ilə bölüşən nüfuzlu nəşrdir. Jurnal bir çox ölkələrin sosial-iqtisadi durumu və inkişaf meyilləri, biznes və investisiya mühiti, aparıcı şirkətləri və digər məsələlər haqqında ildə 20-dən çox xüsusi buraxılış hazırlayır və bütün dünyada yayır. 2011-ci ildən Azərbaycan ilə yaxından əməkdaşlıq etməyə başlayan "The Business Year" nəşri ötən altı ildə ölkəmizə həsr etdiyi xüsusi buraxılışlarda Azərbaycanın daxili və xarici siyasəti, iqtisadiyyatı və onun ayrı-ayrı seqmentləri, sosial, mədəniyyət, idman və cəmiyyət həyatının digər sahələrini hərtərəfli əks etdirib.

# Azercell-in prezidenti Beynəlxalq Rabitə Akademiyasının akademiki adına layiq görüldü

Azercell Telekom MMC-nin prezidenti Vahid Mürsəliyev Birləşmiş Millətlər Təşkilatı (BMT) nəzdində fəaliyyət göstərən, baş ofisi Moskva şəhərində yerləşən Beynəlxalq Rabitə Akademiyasının akademiki tituluna layiq görülüb. Vahid Mürsəliyev informasiya kommunikasiya texnologiyaları sahəsindəki nailiyyətlərinə görə xüsusi diplomla da mükafatlandırılıb. Azercell-in baş ofisində keçirilən görüşdə Beynəlxalq Rabitə Akademiyası Rəyasət Heyətinin üzvü və Akademiyanın Azərbaycan filialının prezidenti, keçmiş Rabitə Naziri Siruz Abbasbəyli Vahid Mürsəliyevə mükafatı təqdim edib. Siruz Abbasbəyli Azercell-in Azərbaycanım rabitə sektorunun inkişafına verdiyi töhfələrdən, həyata keçirdiyi uğurlu layihələrin əhəmiyyətindən söz açaraq, şirkəti bundan sonra da ölkənin lider mobil operatoru kimi görmək istədiyini vurğulayıb. Vahid Mürsəliyev isə öz növbəsində belə bir mükafata layiq görüldüyünə görə Beynəlxalq Rabitə Akademiyasının Rəyasət Heyətinə və şəxsən Siruz Abbasbəyliyə öz dərin təşəkkürünü bildirib.



Qeyd edək ki, Vahid Mürsəliyev 2015-ci ildən etibarən Azercell Telekom MMC-nin prezidenti vəzifəsinə təyin edilib. O, Beynəlxalq Hüquqşünaslar Assosiasiyasının üzvü və Beynəlxalq Ekoenergetika Akademiyasının doktorudur.

Məlumat üçün bildirək ki, 1996-cı ildən BMT nəzdində fəaliyyət göstərən və Baş Qərargahı Rusiyada yerləşən Beynəlxalq Rabitə Akademiyasının dünyanın bir neçə ölkəsində, o cümlədən Bakıda filialı fəaliyyət göstərir. Könüllü akademikləri, məşhur menecerləri, peşəkar mütəxəssisləri bir araya gətirən ictimai təşkilat telekommunikasiya sahələrində ümumi maraqların və praktik məsələlərin inkişafına çalışır. Hazırda Akademiya 33 ölkədən 800-dən çox akademik üzvü özündə birləşdirir.

# Mərkəzi Bankın valyuta ehtiyatları artıb

Azərbaycan Mərkəzi Bankının (AMB) rəsmi valyuta ehtiyatları 31.05.2016-cı il tarixinə 4 milyard 284,3 milyon ABŞ dolları təşkil edib.

Rəsmi valyuta ehtiyatlarının həcmi 29.04.2016-cı il tarixilə müqayisədə 163,7 milyon dollar və ya 3,97% artıb. Qeyd edək ki, 2016-cı il yanvarın 1-nə olan rəsmi valyuta ehtiyatlarının həcmi ilə müqayisədə azalma 732,4 milyon dollar və ya 14,6% təşkil edib. Keçən ilin analoji dövrünə nisbətən isə ehtiyatlar 4 milyard 146,5 milyon dollar və ya 49,18% azdır.




# Bakı-Urumçi-Quançjou marşrutu ilə aviareys açılır

**Çinin "China Southern Airlines" (Cənubi Çin Hava Yolları) aviaşirkəti müntəzəm Bakı-Urumçi-Quançjou aviareysi açır.**

"China Southern Airlines"in Bakı nümayəndəliyindən bildiriblər ki, Bakı-Urumçi-Quançjou aviareysi iyulun 3-dən işə salınacaq.

Uçuşlar "Boeing 737-800" təyyarələrində həftənin çərşənbə və bazar günləri həyata keçiriləcək.

Bakıdan uçuş vaxtı - 23:05, Urumçiyə gəlmə vaxtı - 07:00 (yerli vaxtla), Urumçidən uçuş - 09:40, Quançjouya gəlmə - 14:35, Quançjoudan uçuş - 12:50, Urumçiyə gəlmə - 18:10, Urumçidən uçuş - 20:10, Bakıya gəlmə - 21:05 nəzərdə tutulub.

Aviaşirkətin Bakı nümayəndəliyində hesab edirlər ki, Bakı-Urumçi-Quançjou reysinin açılması sayəsində sərnişinlər uçuş vaxtına qənaət edə biləcəklər. Bu aviareys Azərbaycan ilə Çin arasında qarşılıqlı ticari-iqtisadi fəaliyyətin inkişafına kömək edəcək.



Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400